Nuridə Atəşi

# Qafqaz amazonları
# Miflər arxasındakı gerçək tarix

Nuridə Atəşi

# Qafqaz amazonları
## Miflər arxasındakı gerçək tarix

Azərbaycan Milli Elmlər Akademiyası

*Kitabı tədqiqatçı paralel olaraq alman və azərbaycan dillərində yazmış və sonra rus və ingilis dillərinə tərcümə edilərək Azərbaycan Milli Elmlər Akademiyasının naşirliyi ilə 4 dildə (alman, ingilis, Azərbaycan və rus dillərində) Almaniyada nəşr edilmişdir.*
*Kitabda dünyanın ən qədim (e.ə. II-ci minilliyə aid) savaşçı qadın qəbrinin Qafqazdan - Azərbaycanın Naxçıvan bölgəsindən (Plovdağ-II) aşkar edilməsi faktı və bir çox başqa elmi yeniliklər, arxeoloji materiallar ilk dəfə analiz edilir.*
*Qədim savaşçı qadınlara aid materialların Qafqazın hər tərəfindən toplanaraq Qafqaz Amazonları Sərgisinin təşkili, bu mövzuda beynəlxalq elmi konfransın keçirilməsi, toplanan materiallar əsasında sənədli-bədii filmin çəkilməsi, eyni zamanda Qafqaz Amazonları Muzeyinin yaradılmasından ibarət irimiqyaslı layihənin ilk addımı olaraq təqdim edilən kitab həm də dünya elm aləminə bir tərəfdaşlıq mesajı kimi səslənir.*
*Son illər ərzində Qafqazın müxtəlif bölgələrindən təsadüf nəticəsində aşkar edilən, uzun zaman kişi qəbirləri hesab olunan savaşçı qadın qəbirləri ilk dəfə olaraq monoqrafiya və elmi dissertasiya şəklində araşdırılır.*

*Alle Rechte vorbehalten.*
*Müəlliflik hüquqları qorunur.*
*Müəllifin yazılı icazəsi olmadan kitabdan hər hansı bir şəkildə surət çıxarmaq, tərcümə etmək, elektron və ya yazılı mətbuatda yayımlama və ya digər formada istifadə etmək qəti qadağandır.*

Naşir: *Azərbaycan Milli Elmlər Akademiyası*

© Nuridə Atəşi Qədirova 2011
© Almaniyada Nizami Gəncəvi adına Mədəniyyət İnstitutu

*Printed in Germany*

İSBN:978-3-9811675-1-1

## Təşəkkür

Tədqiqatlarımda böyük dəstəyinə görə Azərbaycan Milli Elmlər Akademiyasına, şəxsən AMEA prezidenti, akademik Mahmud Kərimova, vitse-prezident, akademik Arif Həşimova, vitse-prezident, akademik Nailə Vəlixanlıya, AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudova, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru, professor Maisa Rəhimovaya, AMEA Arxeologiya və etnoqrafiya İnstitutunun Professoru, arxeoloq İlyas Babayevə, albanşünas, tarixçi-alim, professor Fəridə Məmmədovaya, albanşünas, tarixçi-alim Kamal Əliyevə, tarixçi alim, professor Cəbi Bəhramova, arxeoloqlar - tarix üzrə fəlsəfə doktoru Mübariz Xəlilova, tarix üzrə fəlsəfə doktoru Bəhlul İbrahimliyə, tarix üzrə fəlsəfə doktoru Abuzər Ələkbərova, Gürcüstandan albanşünas professor Zaza Aleksidzeyə, Almaniyadan arxeoloq, professor Robert Fleişerə, professor Albert Podlexə, Dr. Hans Jörg Gehringə, Dr. Ernst Poppa və Avstriyadan Gerhard Pöllauerə məsləhətləri, tövsiyələri, dəstəkləri üçün dərindən təşəkkür edirəm.

## Kitabda istifadə edilən şəkillərə görə təşəkkürlər:

Azərbaycan Milli Tarix Muzeyi (Bakı), Almaniyada N.Gəncəvi adına Mədəniyyət İnstitutu (Berlin), Mirnaib Həsənoğlu (Bakı), Prof. Zaza Aleksidze (Tiflis), Bəhlul İbrahimli (Bakı), Bəxtiyar Cəlilov (Bakı), Fuad Axundzadə (Bakı), Fərid Əşrəfoğlu (Bakı).

**Elmi redaktor:** Mübariz C. Xəlilov, tarix üzrə fəlsəfə doktoru, arxeoloq
**Redaktor:** Cəmşid Quliyev
**Rəyçilər:**
1. Fəridə Məmmədova- AMEA müxbir üzvü, tarix elmləri doktoru, professor
2. Kamal liyev- AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru
3. Mübariz C. Xəlilov- AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, arxeoloq
4. Bəhlul İbrahimli- AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, arxeoloq

## Qafqaz dağlarında saxlanan Amazon sirləri dünyaya açılır

## Dünyanın ən qədim savaşçı qadın qəbirləri



*Plovdağ-II. Qəbir Nr.18.*

## Qafqaz dağlarında sensasiyalı tapıntılar

# Mündəricat

Ön söz ........ 8
Qafqaz savaşçı qadınları ........ 11
Plovdağ-II ........ 13
Dünya mədəni irsi olan Qobustan ........ 16
Amazonların daş xronikası ........ 19
Qafqaz metallurgiyanın ilk beşiklərindəndir ........ 21
Qafqaz Albaniyası ........ 22
Araba evlər ........ 23
Qadın fiqurları ........ 25
Təbərzin baltalar ........ 26
Keravin dağı ........ 28
Nart dastanları ........ 29
Dədə Qorqud dastanında amazon ruhu ........ 30
Alazan ........ 31
Pəri qalası (Armatay) ........ 32
Sarıbaş ........ 33
Laza ........ 34
Xınalıq ........ 35
Əsəd Bəyin XX əsrdə Qafqazda kəşf etdiyi amazon tayfaları ........ 37
Əcnəbilərin Azərbaycandakı arxeoloji tapıntıları indi haradadır? ........ 38
Böyük İsgəndər Qafqazda ........ 39
Qız qalası ........ 42
Dərbənd ........ 44
Amazon tədqiqatlarında son elmi baxışlar ........ 45
Nəticə ........ 46
Rəylər ........ 47
Amazon tədqiqatım necə başladı ........ 50

*“Qafqaz amazonların vətənidir”*

*Plutarx*

# Ön söz

Əziz oxucu!

Sizin mühakimənizə verilən bu kitab Qafqazda ilk dəfə tədqiq olunan geniş əhatəli bir layihə haqqında ümumi bilgi vermək üçün nəzərdə tutulub. Məqsədim qoca Qafqazın tarixinin indiyə qədər qaranlıq qalmış səhifələrindən bəzi maraqlı məqamları dünya ictimaiyyətinə təqdim etmək, Qərb elminin diqqətini bu vaxta kimi az tədqiq edilmiş Qafqaza yönəltmək və bununla da dünya elminə bir müraciət ünvanlamaqdır. Eləcə də indiyə qədər beynəlxalq incəsənətdə - rəssamlıqda, heykəltəraşlıqda, mifologiyada ən çox işlənmiş mövzu olan amazonların dünyaya çıxış etdikləri region olaraq qədim Qafqazı dünya elminə daha bir baxış bucağından təqdim etmək istərdim. Məqsədim bu yerlərin dilinə, mədəniyyətinə, mentalitetinə, tarixşünaslıq problemlərinə və mübhəm dağların sirrinə yaxından bələd olan, eyni zamanda Qərb elmi dairələrinin Qafqazla bağlı maraqlarını dəyərləndirə bilən bir tədqiqatçı olaraq, Qafqazın tarixinə öhdəmə düşən  töhfəmi verməkdir.

Artıq 15 ildir ki, bu mövzu ilə bağlı bir neçə ölkədə, Azərbaycan, türk, rus, alman dillərində genişmiqyaslı tədqiqat aparıram. Haqqında danışdığım layihə geniş elmi spektrə malikdir. Buraya arxeologiya, tarix, etnoqrafiya, paleoqrafiya, antropologiya, coğrafiya, sosiologiya, ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıq elmlərinin predmeti sayılan müxtəlif maraqlı məqamlar daxildir. Məlumdur ki, Qafqaz böyük və kiçik dağlar, rəngarəng dillər, müxtəlif azsaylı və çoxsaylı xalqların məskunlaşdığı unikal bir diyardır. Bu əsrarəngiz diyar həm də qeyri-sabitlik, münaqişələr mərkəzidir. Təsadüfi deyil ki, qədim sanskrit dilli yazılı mənbələr bu yerləri Bhu-Svarqa, yəni Yer üzünün cənnəti kimi təqdim edir. Cənnətə zorakı yolla sahib olmaq istəyənlərin silahlı müdaxilələri isə yerli sakinlərin həyatının nizamını tez-tez pozmalı olurdu.

Mən hal-hazırda Qafqaz savaşçı qadınlarının tarixinə dair elmi əsər üzərində çalışıram. Artıq sənədlərimi AMEA-nın Arxeologija və etnoqarafiya institutunun doktoranturasına təqdim etmişəm. Hazırda Azad Berlin Universitetində (Freie Universität Berlin) tarix və arxeologiya üzrə ixtisaslaşdırma kursu keçirəm. Qafqazda, Türkiyədə və Rusiyada bir çox arxeoloji qazıntılarda iştirak etməyi planlaşdırıram. Bu kitab, haqqında söhbət açdığım layihənin ilk addımı sayıla bilər. Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə həyata keçirməyi planlaşdırdığımız layihənin davamı olaraq, Qafqazın qədim savaşçı qadınlarına aid arxeoloji tapıntıları toplayıb sərgi və beynəlxalq elmi konfransın təşkili vasitəsilə öncə 2012-ci ildə Bakıda dünya ictimaiyyətinə təqdim etmək, sonra isə eyni tədbirləri Rusiya Ermitaj Muzeyində, Berlində, Londonda və Parisdə davam etdirmək nəzərdə tutulub. Eyni zamanda, Qafqaz amazonları haqqında sənədli bir filmin çəkilməsi də planlaşdırılıb. Hazırda Avropanın bir çox aparıcı  telekanalları və aparıcı prodüserləri ilə danışıqlar aparılmaqdadır. Bu araşdırmaların bütün müəllif hüquqları layihənin tədqiqatçısı

olaraq mənə və  Almaniyadakı Nizami Gəncəvi adına Mədəniyyət İnstitutuna aiddir. Filmlə bərabər, Qafqaz  amazonlarının tarixi haqqında geniş oxucu kütləsi üçün nəzərdə tutulan bir tarixi-bədii əsərin yazılması layihənin sütununu təşkil edəcək. Ən sonda isə layihənin zirvə nöqtəsi olaraq, paytaxt Bakıda Qafqaz Amazonları Muzeyinin  yaradılması və bu muzeyin eksponatlarının səyyar sərgi vasitəsi ilə bütün dünyanı dolaşması planlaşdırılır. Azərbaycanın görkəmli tarixçiləri, arxeoloqları və mədəniyyət xadimləri tərəfindən yazılmış rəylərdə bu layihəyə böyük əhəmiyyət verilir. Araşdırmalarımın əldə olunan nəticələri Qafqaz tarixinin indiyə qədər tədqiq olunmamış bir hissəsi kimi qiymətləndirilir və son illərin arxeoloji qazıntılarının beynəlxalq tərəfdaşlar vasitəsilə aparılmasının vacibliyi tövsiyə edilir.
Təbii ki, elmi tərəfdaşlar, Avropanın müasir tədqiqat texnikası və maddi baza olmadan belə bir məsuliyyətli  beynəlxalq  tədqiqatın öhdəsindən təkbaşına gəlmək asan deyil. 15 illik gərgin əməyin nəticəsində Avropada, Qafqazda və öz vətənimdə müəyyən qədər geniş elmi və mətbu dəstəyə nail ola bildim. Bir çox rəsmi qurumlar, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyası araşdırmalarıma lazımı önəm verməkdədir.
Amazonların tarixinin bu günə qədərki tədqiqi  nə dərəcədə qənaətbəxşdir? Mövcud tədqiqatların qüsurlarını aydın göstərən bir misal: 2010-cu ilin sentyabr ayından 2011-ci ilin fevral ayına qədər Almaniyanın Rheinland-Pfalz əyalətinin Speyer muzeyində “Amazonlar - savaşçı qadınlar” adlı sərgi və elmi konfransın keçirilməsi Almaniya mətbuatının marağına səbəb oldu. Sərginin yunan və hind-avropa mənşəli skit amazonlarına daha çox önəm verməsinə və avropalı tədqiqatçılar tərəfindən Qafqazda (xüsusən Cənubi Qafqazda) indiyə qədər tədqiqat aparılmamasına baxmayaraq, Tbilisidən (Gürcüstan) gətirilən və 30-40 yaşlarında həlak olması təxmin edilən savaşçı qadına məxsus qəbir ən qədim (e.ə. II minillik) eksponat kimi iştirakçıların, o cümlədən beynəlxalq tədqiqatçıların böyük marağına səbəb oldu. Muzey tərəfindən 2010-cu ildə buraxılmış sərgiyə dair kataloqda savaşçı qadın qəbri haqqında belə yazılıb: “Qadın qəbri e.ə. 2000-ci ilə aid edilir və bununla da elmə məlum ən qədim savaşçı qadın qəbri sayılır”.[1] Lakin Muzeyin mətbuat üçün açıqlamalarında həmin qəbrin e.ə. I minilliyə aid olduğu deyilir.[2] Mən bu anlaşılmazlığı dəqiqləşdirmək üçün Tbilisidəki Milli Tarix Muzeyi ilə əlaqə saxladım. Arxeoloq İrakli Koridzenin verdiyi məlumata görə, həlak olarkən 30-40 yaşlarında olduğu güman edilən  qadın qəbri  1927-ci ildə, Tbilisi yaxınlığında yerləşən Avçala yaşayış məntəqəsindən, arxeoloq Georgi Nioradze tərəfindən tapılıb: “Bu savaşçı qadın yalnız e.ə. 8-7-ci əsrlərə aid edilir”.

---

[1] *Amazonen Geheimnisvolle  Kriegerinnen. Historisches Museum der Pfalz Speyer.2010.S.174*
[2] *http://www.museum.speyer.de/dyndata/Pressemappe_Amazonen.pdf*

Mən adıçəkilən elmi konfransda iştirak edərkən dünyanın ən qədim savaşçı qadınının tarixinin yanlış olduğunu bildirdim. E.ə. II minilliyə aid ən qədim savaşçı qadın qəbrinin Qafqazdan - Azərbaycanın Naxçıvan bölgəsindən (Plovdağ-II) aşkar edilməsi faktını iştirakçıların diqqətinə çatdırdım və dünyanın ən qədim savaşçı qadınlarının vətəni olan Qafqazda elmi araşdırmalar aparılmasının vacibliyini Qərb alimlərinin diqqətinə çatdırdım. Plovdağ-II və Qafqazda aşkar edilən digər yeni elmi-arxeoloji tapıntılar indiyə qədər bu tədqiqata ehtiyat və şübhə ilə yanaşan Qərb alimlərinin, xüsusən arxeoloqların fikirlərində təbii ki, dönüş yaradacaq. Şübhə etmirəm ki, topladığım elmi dəlillər indiyə qədər yalnız miflərlə bəzədilmiş Amazon tarixinin gerçəkliyini sübut edəcək.

# Qafqaz savaşçı qadınları

## Amazonlar: vəhşi, cəsur, məğlubedilməz və ehtiraslı qadınlar

Qafqaz savaşçı qadınları təkbaşına savaşlar aparan, at belində ov edən, təsərrüfat işləri ilə məşğul olan cəsur, qorxmaz, mübariz qadın toplumları olmuşlar. Əsas silahları yay-ox, təbərzin (ikiağızlı yəhər balta) olan, kişilərdən müəyyən istisnalarla təcrid halında yaşayan bu savaşçı-silahlı qadınların Qafqaz dağlarında aşkar edilən izləri onların bu yerlərdə e.ə. II-I minilliklər arasında mövcudluğunu söyləməyə imkan verir. Bu yerlərdəki (yəni müasir Azərbaycan, Gürcüstan, Ermənistan və Dağıstandakı) savaşçı qadın toplumlarının mövcud olduqları dövrü üç mərhələyə bölmək olar: onlar lap əvvəllər dağ zirvələrində, sıldırım dağ yamaclarının keçilməz bərəyələrində (aşağı və yuxarı tərəfləri sıldırım qaya ilə əhatələnən torpaq zolağı), mağaralarda (təxminən e.ə II-I minilliklər) məskunlaşmış, dağların başında qalalar tikmiş (təxminən e.ə. VII-I əsrlər); bu tarixlərdən başlayaraq ətəklərə enərək su hövzələrinin yaxınlığında qalalar tikmiş; daha sonra şəhərlərə köçərək qalalar, müdafiə məqsədli digər tikintilər inşa etmişlər. Təkcə Azərbaycanda qadınların yaşamış, savaşmış olduqları ən azı 60-a yaxın mağara və 15 Qız qalası var ki, bunlardan ən məşhurları Pəri qalası (Zaqatala), Gülüstan qalası (Goranboy), Ərimgəldi (Şuşa) və Bakının simvolu olan Qız qalasıdır. Sonuncunun e.ə. I minillikdə tikilməsi təxmin edilir. Bu ehtimalları daha da gücləndirən faktlar arasında ən maraqlıları e.ə II-I minilliklərə aid savaşçı qadın qəbirləri, onlardan tapılan silahlar və bəzək əşyalarıdır.


*Dəbilqə. 1965. Ağsu*

E.ə. VII əsrin ikinci yarısı və VI əsrin birinci yarısında Qara dənizin şimal və şimal-şərq sahillərində yaranan yunan koloniyalarının bu yerlərin tarixində xüsusi rolu olub. İlk yunan koloniyası Berezan adası yaxınlığındakı Borisfen idi. Sonra Berezandan çox uzaqda olmayan Olviya koloniyası yarandı və tezliklə Borisfen və Dnepr-Buq limanlarını öz əlinə aldı. Bundan başqa, Krım ərazisində yerləşən Pantikapey, Xersones və bir çox digər koloniyalar da olmuşdur.[3] Doğrudur, onlardan ən böyüyü indiki Kerç şəhərinin yerində olmuş Pantikapey idi və mütəxəssislərin də məhz ən

[3] *Борисфен - Березань. Государственный Эрмитаж. Каталог выставки. Санкт-Петербург, 2005.*

böyük koloniyalardan bəhs etməsi təbii qarşılanmalıdır. Qədim mənbələrə görə, Şimali Qafqazda 30-a qədər belə koloniya olub. Albaniya ərazisində, daha dəqiq Qarabağ düzündə, qarqarların qonşuluğunda qədim yunan şəhəri olan Eniana (orta əsr mənbələrində Yunan Íōnes), habelə qədim yunan mənşəli abant (evbey) qəbiləsinin məskənləri olmuşdur.[4] Dərbəndin bir hissəsinin Şəhər-Yunan adlandırılması, Şəkinin Böyük Dəhnə kəndində daş üzərində qədim yunan yazısı tapılması faktları yunan mədəniyyəti ilə Qafqaz xalqları arasındakı tarixi əlaqənin izlərini nişan verir. Məhz bu dövrdən başlayaraq savaşçı qadınlar (bundan sonra amazonlar deyəcəyik) skitlər, massagetlər, sarmatlar, albanlarla qarışaraq yox olsa da, onların izlərini yunan mifologiyası, folkloru və incəsənətində, antik yunan və Roma yazarlarının, rəssamlarının, səyyahlarının əsərlərində tapmaq mümkündür. Çox maraqlıdır ki, yunan koloniyaları Qafqazın tam içəri ərazilərinə yayılmışdı və burada savaşçı qadınlar min illər boyu öz irslərini davam etdirmişdilər.

Təqdim edilən bu kitabda bilərəkdən yunan mifologiyasındakı Amazon hadisələrindən bəhs edilmir. Çünki Qərb dünyasında "amazon" sözü məhz yunan mifologiyası ilə eyniləşdirilir. İndiyə qədər mövcud Qərb tədqiqatlarında ilk öncə Homerin söylədikləri (kişi kimi), sonra Herodotun söylədikləri (Kişi öldürən) əsas götürülərək amazonların skitlərlə birləşməsindən sarmatların (yaxud sarvomatlar) yaranması bu mövzunun əsas elementi kimi göstərilir. Yunan mifologiyasında amazonlardan yalnız e.ə. VIII- VII əsrlərdən başlayaraq söz açılır. Bizim araşdırmalarımız isə bu tarixin daha qədimlərdən başladığını deməyə imkan verir. Mən indiyə qədərki tədqiqatlarımda bu tarixin e.ə. II-I minilliklər, amazonların ilk məskunlaşdıqları həqiqi tarixi məkanın isə Qafqaz olduğunu göstərmişəm.

[4] *Mübariz Xəlilov. Qarabağ tarixi haqqında Nizaminin bilikləri / "Nizami irsi müstəqillik dövründə" Respublika elmi konfransının materialları. Bakı: Elm, 2006, S. 39-40).*

# Plovdağ-II nekropolu cənubi Qafqazın Azərbaycana məxsus Naxçıvan bölgəsi

## Dünyanın ən qədim savaşçı qadınları

2004-cü ilin avqust-sentyabr aylarında AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun arxeoloji ekspedisiyası Naxçıvan Muxtar Respublikasının Ordubad rayonu ərazisində yerləşən Plovdağ-II nekropolunda arxeoloji qazıntılar aparıb. Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Bəhlul İbrahimlinin rəhbərlik etdiyi və AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı Solmaz Qaşqay, Rusiya Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun əməkdaşı İ.Medvedskaya kimi görkəmli mütəxəssislərin də daxil olduğu ekspedisiya nekropolun mərkəzi hissəsində yerləşən 6 saylı kurqanda sensasiyalı bir tapıntı - savaşçı qadın qəbri aşkar etdi!



*Plovdağ-II.*

“Xoşbəxtlikdən üzərindəki torpaq təpəcəyinin qalın olması qəbri xeyli qoruyub. Eyni zamanda, möhkəm gil qatı bir çox əşyaların (ox qabı, ox qamışları, baş geyimi və bəzi muncuqların) formasının yaxşı saxlanmasına şərait yaradıb. Qəbrin örtük daşlarından 50-60 sm dərinlikdə aşkar edilən qadın və uşaq skeletlərindən ikincisinin sümükləri (xüsusilə qabırğa və ətraf sümükləri) çürüyüb, qadının skelet sümükləri isə nisbətən yaxşı qalıb. Qadın sağ, uşaq isə sol yanı üstdə, başları şərq istiqamətində, yarıbükülü vəziyyətdə dəfn olunublar. Uşaq qadının qolları arasındadır. Qadının sol çiyni ehtimal ki, əzələlər çürüdükdən sonra uşağa tərəf əyilmiş, sol qolunun bazu sümüyü isə uşağın çiynindən keçərək qatlanmış və əlinin arxası uşağın çanaq sümüyünə söykənmiş vəziyyət almışdır. Dəfn qaydalarına görə, qadının qolu bükülü vəziyyətdə, əli isə uşağın kürəyində olmalı idi. Görünür, ölünü qəbirə qoyarkən sol qolun vəziyyəti dəyişib.



*Plovdağ-II. Qəbir Nr.18.*

6 saylı kurqandan həmçinin qadın skeletinin üstündə, aşağı tərəfi qadının sol böyrü, yuxarı tərəfi isə sağ çiyini isti-

qamətində qoyulmuş dəridən hazırlanmış ox qabı aşkar edilib. Çürümüş ağac təbəqənin və dərinin izlərinə əsasən ox qabının ölçülərini və gil qatındakı izlərə əsasən isə ox qamışlarının diametrini müəyyənləşdirmək mümkün olub. Uzunluğu 60 sm, eni 11 sm, yan tərəfləri qabarıq olan ox qabının üzəri 15 ədəd (diametri 0,8 sm) piləklərlə (yastı, uzunsov düymələrlə) və nazik, ensiz, uclarında dördbucaqlı dəliyi olan tunc qatı ilə bəzədilib. Ox qamışlarının saxlanmış izlərinin uzunluqları 45-50 sm, diametrləri isə 0,8-1,0 sm-dir. Dəvəgözü və çaxmaq daşlarından ürək formasında, yüksək ustalıqla yonularaq hazırlanmış ox uclarının uzunluğu 2,5 sm-dən 4,0 sm-ə, eni isə 1,6 sm-dən 2,1 sm-ə qədərdir. Bu cür ox qabları bir qayda olaraq nazik ağac təbəqədən hazırlanır, üzərinə dəri çəkilirdi. Qadının kəllə sümüyünün arxa tərəfində və döş qəfəsinin sağ yarısının altında 8 ədəd tunc sancaq, iki ədəd yivşəkilli asma tunc bəzək, onların yanında isə bir düzüm muncuq, sırğa, qolbaq və s. aşkar edilib. 6 saylı kurqanın qurbangahı yoxdur." (Arxeoloq Bəhlul İbrahimli)

Plovdağ-II nekropolunda savaşçı qadın qəbirləri ilə bərabər eyni dövrdə savaşçı kişi qəbirləri də mövcud olmuşdur.

Qadın və kişi qəbirlərində oxşar cəhətlər ox qabı və oxların olması, fərqli cəhətlər isə kişi qəbirlərində xırdabuynuzlu qurbanlıq hey-vanların qoyulması və onların sol yanı üstə dəfn olunması, qadın qəbirlərində isə sancaqların, qadın baş bəzəklərinin olması və onların sağ yanı üstə dəfn olunmasıdır.



*Toppuz. Plovdağ II. E.ə. XIII-XII əsrlər*

Naxçıvan arxeoloji qazıntılarında Qobustandan məlum olan və qadın hökmranlıq simvolu sayılan toppuz tapılıb. Bu gün də Qafqazın bir çox xalqlarında toppuz qadın hakimiyyət simvolu hesab edilir. Həmçinin, Azərbaycanın bir çox başqa bölgələrində savaşçı qadın qəbirləri aşkar edilıb. 1926-cı ildə rus arxeoloqu İ.İ.Meşşaninov Azərbaycanda daha bir savaşçı qadın qəbri aşkar edib. Savaşçı qadınlar Mingəçevirin taxta qutu qəbirlərində də dəfn olunmuşlar. "Hətta bu növ (taxta qutu) qadın qəbirlərindən də silahlar tapılır".[5]

Silahlı qadınların dəfn edildiyi Mingəçevir taxta qutu qəbirləri barədə daha konkret bir fakt: "В срубном погребенье №1 раскопанным в 1949-м году, перед женским скелетом лежал железный нож, железный кинжал (1949-cu ildə qazılmış 1 saylı taxta qutu qəbirdə qadın skeletinin qarşısında dəmir bıçaq, dəmir xəncər yerləşmişdir)".[6]

Naxçıvanın qədim Qızılvəng nekropolundan da savaşçı qadın qəbri aşkar edilmişdir.

---

[5] *S.M. Qazıyev. Mingəçevirdən tapılmış bəzi silahlardan.Azərbaycanın maddi mədəniyyəti.IICild.Bakı Az.SSR EA Nəşriyyatı, 1952, S.5-30.*

[6] *Дж.А.Халилов. Материальная культура Кавказской Албании (IV в.до н.э. – III в.н.э.). Баку, Элм, 1985, 236 с.*

Lakin qəbir qarət olunduğundan tam şəkildə öyrənilməsi mümkün olmamışdır.
2009-cu ilin yayında Azərbaycan Milli Akademiyası Arxeologiya və Etnoqrafiya İnistitutunun Göygöl-Goranboy arxeoloji ekspedisiyası İlanlı təpədə, 2 saylı kurqanda qeyri-adi tapıntılar əldə edib. Milli Elmlər Akademiyasının əməkdaşı, arxeoloq B.M.Cəlilovun rəhbərlik etdiyi ekspedisiya kurqanın qərb kamerasından bükülü vəziyyətdə, üst-üstə dəfn edilmiş kişi və qadın skeletləri və onların yanında silahlar, döyüş ləvazimatları, həmçinin bəzək əşyaları aşkar edib. Savaşçıya və ya tayfanın nüfuzlu şəxslərinə aid olması ehtimal edilən qəbirdən tapılan əşyalar arasında bir ədəd tuncdan hazırlanmış qılınc, bir ədəd xəncər, bir ədəd nizə ucluğu, bir ədəd bilərzik, bir ədəd ox və ox qabının izləri, üç ədəd obsidiandan hazırlanmış ox ucluğu da var. Tapıntılar arasında metal bəzək əşyaları xüsusilə üstünlük təşkil edir. Silahların dəfn edilənlərdən hansına məxsus olmasını müəyyən etmək çətin olsa da, bəzək əşyalarının əksəriyyətinin amazon atributları olması heç bir şübhə doğurmur: təbərzin formalı asmalar, nal şəkilli və aypara şəkilli asmalar, saç boruları, rombvari asmalar, muncuqlar və s. Mütəxəssislər bu tapıntıları ilk dəmir dövrünə (e.ə. IX-VIII əsrlər) aid edirlər.
Qafqazın bir çox bölgələrində son illər ərzində savaşçı qadın qəbirləri aşkar edilmişdir ki, bunlar haqqında hazırda yazılmaqda olan monoqrafiyamda geniş söhbət açılacaqdır.
Qafqazda indiyə qədər aşkar edilmiş bütün bu savaşçı qadın qəbirləri təəssüf ki, indiyə qədər ayrıca tədqiq edilməyib. Onların yaşamış olduqları dövr Azərbaycan və Rusiyanın təcrübəli arxeoloqlarının yazdıqlarına görə, ən azı e.ə. II minilliyə aid edilir və bununla da dünyanın indiyə qədər aşkar edilmiş ən qədim savaşçı qadın qəbirləri hesab edilməlidir.



*Göygöl-Goranboy. İlanlı təpə, 2 saylı kurqanda açkar edilən təbərzin formalı qadın bəzəkləri. 2009*
*Mənbə: Azərbaycanda arxeoloji tədqiqatlar. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, Xəzər Universiteti, Bakı 2009*

# Dünya mədəni irsi olan Qobustan

### Daşlaşmış amazonlar hərəkətə gəlir

Bakıdan 60 km-lik məsafədə yerləşən Qobustandakı tədqiqatlar sübut edir ki, bu yerlər hələ e.ə. XV-X minilliklərdən yaşayış məskəni kimi seçilib. Bu tədqiqatımda arxeoloq İshaq Cəfərzadənin 40 illik Qobustan araşdırmalarına böyük və etibarlı mənbə olaraq tez-tez istinad edirəm.
1965-ci ildən arxeoloq F.Muradova və onun həyat yoldaşı Cəfərqulu N.Rüstəmov İ.M.Cəfərzadənin Qobustan tədqiqatlarını davam etdirmişlər. Onların əldə etdiyi tapıntılar SSRİ EA-nın Arxeologiya İnstitutunun Leninqrad filialında, keçmiş imperiyanın ərazindəki digər oxşar qaya rəsmləri ilə müqayisəli şəkildə təhlil edilmişdir. Son arxeoloji qazıntılar və təhlillər sübut edir ki, buradakı ən qədim qaya rəsmlərinin tarixi təxminən e.ə XIV-XIII minilliklərə təsadüf edir.
İtaliyanın Valkamenike şəhərindəki Centro Camuno di Studi Preistorici Elmi-Tədqiqat İnstitutunun direktoru, professor Emmanuel Anatinin rəhbərlik etdiyi tədqiqat qrupu 2000-ci ildə Qobustana gələrək burada 7 gün tədqiqat aparıb. E.Anati Qobustanı  Portuqaliyanın Foz Çoa, İspaniyanın Siyeqa Verde, Avstriyanın Totes Qebirge, Türkiyə, Anadolu, İsrail, Neqev səhrası, Ərəbistan yarımadası və Yaxın Şərqin bir sıra yerlərindəki oxşar qədim yaşayış məskənləri ilə müqayisə edərək belə bir qənaətə gəlib ki, Qobustanda müxtəlif xalqlar müəyyən zaman kəsimlərində birgə, bəzən isə bir-birini əvəzləyərək yaşayıblar. Sonda isə özü-özünü inkar edərək "Qaya təsvirləri qoruqlarının eyni zamanda müxtəlif qruplar tərəfindən yaradılması mümkün deyil" - deyə qəti fikrə gəlməkdə tərəddüd etdiyini etiraf edir. O, gələcək tədqiqatçıların bu problemi aça biləcəyinə ümid edir.[7]
Qobustandakı qadın təsvirləri tədqiqatçıların diqqətini xüsusilə çəkir. Qobustan tədqiqatçılarından Məlahət Fərəcova qadın təsvirlərini buradakı rəsmlərin ən qədimi kimi qiymətləndirir. Qobustanda, Böyükdaş dağının üst terrasında, "Kənizə" dayanacağının qayaaltı sığıncağında aşkar olunmuş, mezolit dövrünə aid, gildən hazırlanmış iki qadın fiquru barədə isə xüsusilə danışmaq istərdim. Çox hissəsi çılpaq, hündürlüyü 5 sm-dən 20 sm-ə qədər olan bu heykəlciklər Qobustanın qayaüstü rəsmlərinin bir növ davamıdır. Onlar qırmızı gildən hazırlanmış, yaxşı yandırılmışdır. Bəzilərinin üzərində bəzək əşyaları, ayaqlarındakı halahal (ayağın topuq nahiyəsinə geyilən qadın bəzəyi) aydın görünür.[8]
E.Anati Qobustan qayalarındakı qadın təsvirləri barədə yazır: "Hələ də aydın deyil ki, onlar təsvirlərin bir hissəsi, yoxsa müstəqil bir qrupdur. Primitiv antropomorfik təsvirlərlə ümumi oxşarlıqları olsa da onlar ibtidai neolit cəmiyyəti üçün xarakterik

---

[7] *Gobustan. Azerbaijan  By Emmanuel Anati Wara Archives Edizioni del Centro Capo di Ponte (BS) 2001, Italy. S. 70-74*
[8] *Рустамов Д.Н., Мурадова Ф.Н. «Кяниза» - Стоянка каменного века. АЭИА, - Баку,1978.*

olmayan nümunələr sayıla bilər”. [9]
Qobustandan tapılan, son neolit dövrünə aid, qəbilə başçısı Ana xaqana məxsus olduğu ehtimal edilən toppuz isə daha bir döyüşçü qadın izidir. Bu tapıntı buradakı qadın təsvirlərinin amazonluqla əlaqələri baxımından araşdırılmasını vacib edir.
E. Anatinin Qobustanı ilk Avropa tədqiqatçısı olaraq araşdırması təqdirəlayiqdir. Lakin bu tələsik və səthi tədqiqatın nəticələrini olduğu kimi qəbul etmək çətindir. Onun bəzi fikirləri isə tamamilə qəbuledilməzdir: “Təəccüblüdür ki, süvarinin ilkin təsvirləri bu dövrə təsadüf edir və eyni zamanda bu təsvirlər adamda elə bir inam yaradır ki, bu əhliləşdirilmiş atlar yerli adamlara gəlmələr tərəfindən töhfə edilir”.[10]
Sözsüz ki, E.Anatinin Azərbaycanın digər bölgələrində arxeoloji qazıntılar əsasında tədqiq edilmiş, çıxarılmış at sümükləri, atlara aid bəzək əşyalarından xəbəri olmayıb.
Arxeoloji qazıntılar zamanı Qarabağ, Gədəbəy, Göygöl və Mingəçevirdə bir neçə tunc yüyən, at boynunu bəzəmək üçün tunc zınqırovlar, düymələr, yəhər qaşını bəzəyən sümük əşyalar tapılmışdır. Cənubi Qafqazda atdan minik üçün istifadə edilməsinə təxminən e.ə II minilliyin ortalarında başlanmışdır. Naxçıvanın Şahtaxtı kəndi yaxınlığındakı kromlex formalı qəbirdən at skeleti ətrafından 30 ədəd gil qab, tunc əsaslı qızıl toqqa çıxarılıb. Tədqiqatçılar bu tapıntını e.ə. II minilliyin sonuna, Uzuntəpədə, Mingəçevirdə və Qarabağda aşkar edilən tunc yüyənləri isə e.ə VII əsrə aid edirlər. E.Anatinin fikrini təkzib edən daha bir fakt isə Qafqazda ən qədim at cinsinin Qarabağ atı olması, hətta onun bütün Asiya at cinslərinin əcdadı sayılmasıdır. Bunu D.Dubenski də təsdiq edir: “*Əslində Qafqazda olan at cinslərinin hamısı Qarabağ at cinsindən törəmişdir”.*


*Qobustan. Qaya üzərində rəsm*

Təbii ki, bunlar DNA testi ilə sübut edilməlidir və tədqiqat boyunca buna çalışılacaq.
1952-53-cü illərdə Qobustan qayalığı tamamilə dağıdılaraq burada böyük və nəhəng bir sovet daş karxanası yaradılması planlaşdırıldı. Elə bu məqsədlə də ora yüzlərlə ağır texnika və dağıdıcı buldozerlər göndərildi. Xalq şairi Səməd Vurğun bu xəbəri

[9] *Gobustan. Azerbaijan By Emmanuel Anati Wara Archives Edizioni del Centro Capo di Ponte (BS) 2001, Italy. S. 70-74*
[10] *Yenə orada. Səh.74*

eşidərkən böyük bir fədakarlıqla daş karxanasının fəaliyyətini dayandırmağa müvəffəq oldu.

Tədqiqat ərəfəsində 2009-cu ilin əvvəllərində Qobustanın Kiçik Daş sahəsində böyük bir qum karxanasının fəaliyyət göstərdiyinin şahidi oldum. Dərhal Azərbaycan mətbuatında bu barədə həyəcanlı yazılar yaydım və birbaşa Azərbaycan prezidentinə, ölkənin birinci xanımı, YUNESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya, Azərbaycanın xarici işlər və mədəniyyət nazirlərinə məktublar yazdım. Qobustanda qum karxanasının fəaliyyəti dərhal dayandırıldı.







*Qobustanda Kiçik daş sahəsindəki qum karxanası 2009*



*Qobustan*

# Amazonların daş xronikası

**Azad səma altında azad amazonların rəsm qalereyası**
**Qobustan Amazonları - Ana zağa mağarası**

Ana zağa mağarasını arxeoloq İ.Cəfərzadə tədqiq edib. Mağaranın sağ girəcəyindəki qaya rəsmlərindən ən qədimi və ortada olan ən böyük qadın rəsmini "Toplumun anası" adlandıran və onun şərəfinə qayaya "Ana zağa" adını verən arxeoloq: "O dövrdə qəbilənin başçısı ana idi"[11] – deyə, qeyd edir.

Ana zağadan xeyli miqdarda öküz sümükləri çıxarılmışdı. İkitəkərli araba və başına ip keçirilmiş öküz bizə antik tarixçilərin çatdırdığı, skitlərin və sarmatların öküz arabalarından istifadə etməsi barədə faktla üst-üstə düşür. Zağalardan tapılan araba təkərləri və qayalarda çəkilmiş arabanın təkər rəsmləri də bunu sübut edir. Azərbaycan Dövlət Tarix Muzeyində qorunan üstüörtülü araba modelləri isə daha tutarlı bir sübutdur. Qafqazda bu və buna oxşar kəl arabaları indiyə qədər qalır.



*Qobustan. Ana zağa mağarasının girişində sol divardakı qaya rəsmi*

Kiçikdaş dağındakı 58 nömrəli qaya üzərində tələyə salınmış, ağzından köpük çıxan öküz rəsmi, zağalardan tapılmış gil araba təkərləri, Cinqirdağ dağındakı 55 nömrəli daşın üzərində e.ə. II minilliyə aid edilmiş ikiçarxlı araba rəsmi, Böyükdaş dağındakı 45 nömrəli qayaüstü rəsm - e.ə. VI minilliyə aid edilən, başına ip salınmış öküzün təsviri, qayalarda öküzləri bağlamaq üçün açılmış dəliklər buna tutarlı sübutlarıdır. Antik yazarların

---
[11] *İ. M. Cəfərzadə "Qobustan qayaüstü rəsmlər" YNE "XXI"1999 S.11.*

Xəzər sahillərində, Qafqaz dağlarında yaşayan köçəri tayfaların (skit, sarmat) öküz arabalarının olduğunu dəfələrlə söyləməsi isə bu nəzəriyyənin doğru olduğunu bir daha təsdiqləyir. Klavdi Elian (II-III əsrlər) yazır: "Kaspilər ölkəsində öküz sürüləri və at ilxıları çoxdur". Arabalar bizə təbii ki, qədim şumerlərdən, Ur və Akkaddan da məlumdur: erkən tunc dövrünə aid olan Valkamonika (İtaliya, Foppedi Natro əyaləti), Çaganka (Qara oyuq), Yeniseyin Sayan dərələri, Tuvanın Sın-Çurek, Üstü Mozaqi dağının ətəklərindəki Altay arabaları və s. Lakin bəzi tarixçilər bu arabaların 3-2 min il bundan əvvəl Altay dağlarından keçərək Mərkəzi Asiyaya, o cümlədən Azərbaycana gətirilldiyini ehtimal edirlər. Qobustandakı Ana zağa mağarası, qayaüstü rəsmlər və Qobustanda indiyə qədər aşkar edilmiş savaşçı qadınlara aid arxeoloji tapıntılar bizə amazonların ilkin mağaralarının Qobustan olduğunu söyləməyə tutarlı əsaslar verir. Lakin Qobustanda köklü tədqiqatlar aparılması zəruridir.



*Qobustan. Ana Zağa mağarasının 50 metrliyində 7 gözəl adlanan qaya parçası*

# Qafqaz metallurgiyanın ilk beşiklərindəndir

Qafqazda metallurgiya ənənələrinin meydana gəlməsi barədə tarixçilərin fikirləri rəngarəngdir. R.Virxov və E.Şantır bu ənənələrin Qafqaza Mərkəzi Asiyadan, Jak de Morqan Ön Asiyadan keçməsini, Vyana etnoloji elmi məktəbinin nümayəndəsi Q.Vile isə bir az da qabağa gedərək Dunay metallurgiyasının Qafqaz metallurgiyasından daha qədim olduğunu və buraya metallurgiya ənənələrinin Şərqi Dunaydan keçdiyini iddia ediblər. A.A.İyessen bütün bunların əksini isbat edən elmi dəlillərlə Qafqazı ən qədim metallurgiya mədəni elan edir. O, qeyd edir ki, coğrafi mövqeyi ilə əlaqədar olaraq Qafqazın metalı həm xammal, həm də hazır məhsullar şəklində Kiçik Asiyaya, Beynəlnəhrə, İrana və Qafqazın quzey ərazilərinə yayılıb. A.A.İyessen e.ə. II minilliyin ortalarından başlayaraq Qafqazda metallurgiyanın sürətlə inkişaf etdiyini deyir. O, Cənubi Qafqazda 5 əsas metallurgiya mərkəzi olduğunu qeyd edir: 1) Qərbi Gürcüstan; 2) Mərkəzi və Şərqi Gürcüstan; 3) Mərkəzi Cənubi Qafqaz; 4) Ermənistan; 5) Kür və Araz çaylarının arası (Azərbaycan).

A.A. İyessenin dediklərini sübut edən arxeoloji faktlardan Mingəçevirdən tapılan 5 ədəd misəridən kürəni, Şəmkir və Mingəçevirdə aşkar edilən təbərzin qəliblərini, Qafqazın müxtəlif bölgələrindən tapılan tuncdan hazırlanmış bəzək əşyalarını (sırğa, kəmər, sancaq, qolbaq, döşbəzəyi, bəndbaşı, alın bəzəyi [papaqqabağı], düymələr və zınqırovları) qeyd etmək olar. Şimali Qafqazda - Maykop yaxınlığında da çoxlu belə bəzək əşyaları tapılıb.[12]

Arxeoloji qazıntılar sübut edir ki, Qafqazda e.ə. VI-V minilliklərdə, yəni eneolit dövründən misdən əmək alətləri və silahlar hazırlanmağa başlanıb. Lakin mis alətlər praktiki cəhətdən əlverişli olmadığı üçün qədim insanlar misi qalayla qarışdıraraq tunc əldə ediblər. Qədim insanlar qalayla tanış olana qədər eyni məqsədlə mərgümüşdən (arsendən) istifadə ediblər. Qafqazda mis və mərgümüş yataqlarının mövcudluğu burada erkən tunc mədəniyyətinin yaranmasına təkan verib. Bu ehtimalı I Kültəpə və digər arxeoloji tapıntılar da təsdiq edir. Minilliklərlə yaşı olan I Kültəpə abidəsi bütün Qafqazda eneolit dövrü mədəniyyətinə aid tədqiq olunan ilk yaşayış məskənidir.



*A. A. İyessenin Təbərzin baltalarının yayılma xəritəsi*

---

[12] *Yenə orada S 111-113.*

# Qafqaz Albaniyası

## Yeni faktlar

Qafqaz Albaniyası təxminən e.ə. IV əsrin sonunda bərqərar olub, e.ə. III əsrin əvvəlində mərkəzləşdirilmiş Albaniya dövləti yaranıb və bu dövlət müəyyən fasilələrlə XI əsrədək mövcud olub. Missioner Yeliseyin təbliğatı ilə xristianlığı ən erkən qəbul edən ölkələrdən biri kimi bu dövlət dünya tarixində mühüm rol oynayıb. Ən qədim apostol kilsələrindən sayılan Alban kilsələri Qərb tədqiqatlarında indiyə qədər çox az tədqiq edilib və təəssüf ki, çox zaman bugünkü Albaniya ilə qarışıq salınır.
Gürcüstan Əlyazmalar İnstitutu Sinay dağına 1990, 1994, 1995 və 2000-ci illərdə 4 ekspedisiya göndərdi. 2000-ci ildə Sinay dağındakı Katerina məqbərəsində aşkar edilmiş alban əlifbasının palimpsestləri elmdə bir inqilab kimi səsləndi və tarixə yazıldı.
Bu tapıntı alban əlifbasının varlığını şübhə altına alan bütün ehtimalları heçə çıxardı. Minillik səltənətə malik olan qədim Qafqaz Albaniyasının özünəməxsus dili, əlifbası, sikkəsi və böyük mədəniyyəti olması artıq bir çox mütəxəssislər tərəfindən təsdiq edilib. Albanların bugünkü varislərindən biri də Azərbaycanın Qəbələ və Oğuz rayonları ərazisində yaşayan udinlər hesab olunurlar.
*Strabon və digər antik mənbələr amazonların albanlar və qarqarlarların qonşuluğunda yaşamış olmalarını, romalılarla albanların savaşında amazonların iştirakını qeyd edirlər.* *Qafqaz Albaniyası və albanların silahları bu tədqiqatımın ən vacib mövzularından biridir.*
*Plutarx:* "...döyüşdən sonra romalılar öldürülmüş barbarların üst-başlarını axtarıb qarətə başlayanda amazon peltaları tapılmışdı". (Pompeius35)




*Qafqaz Albaniyasının xəritəsi*




*İlk dəfə 1975 ci il mayın 26 da Sinay dagındakı müqəddəs Katerina məqbərəsində yanğın nəticəsində təsadüfən zirzəmidən 20-ci əsrin sensasiyası sayılan 1100-dən cox əlyazma tapıldı. Professor Zaza Aleksidze 1990-2000-ci illərdə burada Qafqaz Albaniyasının tam əlifbasını aşkar etmişdir. Fotolar: Z. Aleksidzedən*

# Araba evlər

## Arabaların üstündə şəhərlər

Herodot skit qadınlarını “üstübağlı arabalarda dincələnlər” kimi təsvir edir. Bu cür arabaların nümunələri Azərbaycanın Mingəçevir şəhərində də arxeoloji qazıntılar zamanı aşkar edilib. Araba təkərlərinə Qobustanın qayaüstü rəsmlərində və onun zağalarından çıxarılmış əşyalar arasında da rast gəlmək mümükündür. E.ə. II minilliyə aid müxtəlif kurqan-qəbirlərdən tapılan 4 və ya 2 təkərli (Rusiyanın Ural bölgəsi) at arabaları başqa yerlərdə də tapılıb. Onların amazon arabaları ilə bir çox fərqli və oxşar cəhətləri var. Məsələn, bu tapıntılar arasında təkərinin diametri 90-100 sm və ya uzunluğu 120 m olanlar (Çelyabinsk vilayətinin Sintaşta bölgəsi) da var.[13]

Alman alimi, professor R.Rolle 20-dək bu tipli müxtəlif araba nümunələrinin e.ə. III minilliyə aid kurqan və qəbirlərdən (Rusiyanın Lukyanovka, Ukraynanın Krivoy Roq, Ermənistanın Göyçə gölü kənarındakı Lçaşen bölgələrindən) aşkar edildiyini yazır.[14]

Ammianus Marsellinus sarmat-alan qadınlarından bəhs edərkən onların arabalarını “arabaların üstündə şəhərlər” adlandırır: “Onlar bu şəhərlərdə yaşayır, uzun yollara çıxır, yemək, ərzaq tapdıqları yerdə düşərgə salır, yeyib doyduqdan sonra yenə “şəhər”lərinə əyləşərək yollarına davam edirlər. Arabalar onların daimi yaşayış yerləridir. Hara gedirlər getsinlər, özlərini öz evlərindəki kimi hiss edirlər”.[15]

E.ə. IV minilliyin sonunda Yaxın Şərq ölkələrində belə arabaların olduğu məlumdur. Mingəçevirdə arxeoloji qazıntılar zamanı tapılan, tunc dövrünə aid edilən belə araba təkərləri və üzərində mənzil nümunələri olan arabalar hazırda Azərbaycan Dövlət Tarix





*Araba modelləri. E.ə 13-9 əsrlər. H.12sm, Uz.21sm Milli Tarix Muzeyi, Bakı AF334*

[13] *Renate Rolle, Michael Müller-Ville und Kurt Schietzel Archäologisches Landesmuseum Schleswig“ Gold der Steppe Archäologie der Ukraine“, Neumünster, Wachholtz 1991 S. 85-92.*
[14] *Yenə orada S. 85.*
[15] *Yenə orada S. 91.*

Muzeyində  qorunur və tədqiqatımda ayrıca yer tutur.
Y. A. Lalayan tərəfindən 1908-ci ildə Ermənistan ərazisindən, Göycə gölü yaxınlığındakı Adıyaman kəndindən öküz qoşulan araba nümunələri tapılıb. Bunlar böyük daş sərdabədən çıxan, 4 öküz qoşulan iri ağac arabalardır.[16] Məlumdur ki, atın qoşqu kimi istifadə edilməsi isə sonrakı dövrlərə aiddir.

[16] *Б. Б. Пиотровсий. Археология Закавказья. Ленинград, ЛГУ, 1949, С.117.*

## Qadın fiqurları

Qafqazın müxtəlif yerlərindən tapılan qadın fiqurları Qarğalar təpəsi, Çalağan təpə (e.ə. V minillik), İsmayıllı, Qəbələ (Çaqqallı kəndindən tapılan gil qadın fiqurlarının birinin tarixi e.ə. I əsrə aid edilsə də o birilərinin dəqiq tarixləri hələ müəyyənləşdirilməyib), Mingəçevir və Füzuli bölgələrindən aşkar edilib. "Bu cür fiqurlar Neolit dövrünün sonları - tunc dövrünün əvvəllərinə aid edilir. Dağlıq Qarabağda tapılan oxşar fiqurları isə hətta paleolit dövrünə aid etmək olar.[17] Bugünkü Ermənistan torpaqlarından da qadın fiqurları aşkar edilmişdir.
1984-cü ildə Sərkərtəpədə (Xaçmaz rayonu) aparılmış arxeolojoji qazıntılar zamanı çıxarılan qadın fiqurlarını yerli əhalinin dediyinə görə əhəmiyyəti anlaşılmadığından gölə tullayırmışlar.[18] Yalnız sonrakı dövrlərə aid edilən, gildən hazırlanmış kişi fiqurları patriarxata keçid dövrü kimi qiymətləndirilir. Qadın savaşçı qəbirlərindən qolbaqlar, qılınclar, ox ucluqları və təbərzinlər tapılmışdır. Azərbaycanda həmçinin, Qarğalar-təpə, Qəbələ, İsmayıllı, Çalağan təpə, Fizuli, Qobustan, Mingəçevir, Tovuz və digər yerlərdən qadın fiqurları tapılıb.

Müxtəlif Qafqaz tədqiqatçıları, o cümlədən rus arxeoloqu A. V. Arsixovski qadın fiqurlarını Qafqazda hökm sürmüş matriarxatın izləri kimi kimi qiymətləndirib.
Arxeoloji qazıntılar nəticəsində tunc dövrünə aid abidələr arasında yalnız kişi fiqurlarının tək-tək halda aşkar edilməsi cəmiyyətdə kişilərin aparıcı qüvvəyə çevrilməsinin başlandığına sübutdur.



*Mollaisaqlı, Mingəçevir və Xınıslıdan tapılan gil qadın fiqurları. E.ə 4-1 əsrlər. Azərbaycan Tarix Muzeyi*



*Qazax rayonunun Qarğalar təpəsi yaşayış yerindən aşkarlanmış gil qadın fiquru Eneolit dövrünə aiddir. E.ə. vı-ıv minillıklər (Azərbaycan Tarix Muzeyi)*

[17] *Teymur Bünyadov, "Azərbaycan arxeologiyası oçerkləri". Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1960. Səh.12*
[18] *Aytən Mehdiyeva, "Azərbaycanda qız qalalarının tarixi", Bakı, Elm, 2000, Səh.10.*

# Təbərzin baltalar

## Amazon baltaları

1982-ci ilə qədər Qafqazda 38 ədəd təbərzin tapılıb. Qafqazşünas alim A.A.İyessen 1935-ci ildə yazdığı "Qafqazda metallurgiya məsələsinə dair" adlı əsərində təbərzin baltaların yayılma xəritəsini göstərib. Amazonların döyüş atributlarından olan təbərzin baltalar, həmçinin təbərzin formalı qadın bəzək əşyaları Azərbaycanın Qarabağ, Qəbələ, Göygöl, Şəmkir, Mingəçevir, Xocalı, Gədəbəy, Gəncə, Daşkəsən, Quba, Şabran bölgələrində, həmçinin Ermənistanın Karmir-Blur, Lçaşen, Artik, Ağtala, Gürcüstanın Kvemo-Kartli, Qantiadi, Havtlug kimi bölgələrində aparılan arxeoloji qazıntılar zamanı da tapılıb. Belə təbərzin baltalar Ön Asiyanın müxtəlif bölgələrində, hətta Qafqazın hüdudlarından kənarda, məsələn, Cənubi Mesopotamiya və Ön Asiyanın müxtəlif bölgələrində də aşkar edilib. Amma bir çox tədqiqatçılar, o cümlədən erməni tarixçisi Emma Xandzadyan bunların ilkin olaraq Cənubi Qafqazda yarandığını ehtimal edib. Bu təbərzinlər elm aləmində məhz Cənubi Qafqaz təbərzinləri və amazon baltaları adı ilə tanınır. Bu silah növünün Qafqaza kənardan gətirilmədiyini, yerli sənətkarlar tərəfindən hazırlandığını sübut edən daha bir fakt isə bu yerlərdən aşkar edilən çoxsaylı qəliblərdir. Onlardan biri Şəmkir rayonu yaxınlığındakı qədim yaşayış məskənində aparılan qazıntılar zamanı aşkar edilib. Gildən hazırlanmış bu qəlibin uzunluğu 19,5, eni 16, qalınlığı isə 8 smdir. Mingəçevirdən əldə edilən oxşar qəlib boz rəngli bazaltdan hazırlanıb. Tədqiqatlar bu qəlibdən Azərbaycanda geniş yayılan tunc təbərzin baltaların tökülməsi üçün istifadə olunduğunu sübut edir.[19]

Təbərzin baltalarının ilk beşiyinin Qafqaz olmasının daha bir sübutu burada təbərzinlərin hazırlanması üçün lazım olan zəngin mis yataqları, misin əridilməsi üçün tələb edilən yanacaq və odadavamlı gil ehtiyatlarının çox olmasıdır. Bu ehtiyatlar Azərbaycanda (Gədəbəy, Daşkəsən və Balakən ərazilərində) kifayət qədərdir. Qədim mis mədənlərinin qalıqlarına Azərbaycanın bir çox yerlərində - Gədəbəy (Misdağ, Slavyanka), Hüzgər, Çovdar, Mirzik və Dəstəfürda, həmçinin Tərtər çayı hövzəsində də təsadüf edilib.[20]

Əlbəttə ki, təbərzin baltaların savaş silahı kimi istifadə edilməsinə bir çox ölkələrin və xalqların tarixində rast gəlmək mümkündür. Lakin yuxarıda sadalanan faktlar və arxeoloji tapıntılar onların Qafqazda yaranmış olmasını və amazonların əsas silah vasitəsi hesab olunduğunu söyləməyə əsas verir.

---

[19] *Vəli Baxşəli oğlu Baxşəliyev, "Azərbaycan arxeologiyası" (Ali məktəb tələbələri üçün vəsait) –Bakı, Elm, 2007, Səh. 239*

[20] *Qələndər Aslanov, "Azərbaycanın tunc təbərzin baltaları", Elm nəşriyyatı, Bakı, 1982, Səh. 34-35*





*Amazon baltası. Mingəçevir. Son tunc dövrü. E.ə 2-ci minilliyin sonu.*
*Uz.16, eni 12 sm. Mingəçevir Tarix Muzeyi*

# Keravin dağı

### Atropatena, Albaniya, Amazoniya

Antik mənbələr, o cümlədən Strabon amazonların Qafqaz sıra dağlarına aid Keravn silsiləsində yaşadığını, baharda onları qarqarlardan ayıran dağa qalxaraq qonşu qarqarlarla nəsil artırmaq üçün görüşdüyünü qeyd edir. K.V.Treverə görə, bu dağ Şimali Qafqazda - Dağıstanda yerləşir. B.A.Dorn da Keravn dağının Şimali Dağıstanda olduğunu ehtimal edir və onu Marana dağları ilə eyniləşdirir. Bununla belə, əksər tarixçilər Keravn (Keraun) dağının Kiçik Qafqaz sıra dağlarının Murovdağ silsiləsinə aid Qərvənd-Camış dağı olması faktını təsdiq edir. Erməni tarixçisi S.T.Yeremyan da qeyd edir ki, amazonların ölkəsi Azərbaycandır. Moisey Kalankatuklu isə “Alban tarixi” kitabının ilk fəslində Yasəfin oğlanlarının adını çəkdiyi zaman yazır: “Onların torpaqları budur: Atropatena, Albaniya, Amazoniya”.
Bütün bu izlər bizə amazonların ilk zamanlarda Qafqazda yaşadığını və Qafqazdan Qara dəniz sahillərinə, Yunanıstana yayıldığını söyləməyə, həmçinin bu mövzunu daha dərindən araşdırmağa əsas verir.
Bizans müəllifi Qeysəriyyəli Prokopius 553-cü ildə tamamladığı “Müharibələr” kitabında (Kitab 4, fəsil 3 ) yazır: “Amazonlar ehtimal ki, Qafqazdan gəliblər. Onlar indiki Amisus şəhərinin olduğu Temiskira və Termodendə yerləşiblər. İndi Qafqaz ölkələrində amazonlardan heç bir xatirə qalmayıb. Hətta Strabon və bir çox başqaları bu haqda yazsalar da, amazon adının özü belə yoxa çıxıb”.[21]
Mən tədqiqatımda amazonların sonradan Qafqaza gəlməsi ehtimalına qarşı çıxır və bunu əldə etdiyim dəlillərlə sübut etməyə çalışıram.
“Tarixən Qafqaz diyarında dağlıların düzənliyə köçürülməsi sübut olunmuşdur, düzənlərdə yaşayanların isə dağ yerlərinə köçürülməsi faktı bizə məlum deyildir.”[22]

---

[21] *Andreas David Mordtmann , “Die Amazonen”, Hahnsche Hofbuchhandlung, Hannover 1862.*
[22] *Qəmərşah Cavadov:”Azərbaycanın azsaylı xalqları və milli azlıqları”. Elm 2000 Səh 245.*

# Nart dastanları

Avropada mifologiya deyildikdə ilk növbədə yunan mifologiyası başa düşülür. Hətta Prometeyin Qafqaz dağlarında zəncirlənməsi əfsanəsi də yunan mifologiyası ilə tanınıb. Bu, təbii ki, yunan dili və mədəniyyətinin geniş coğrafiyada yayılması və Qərb təhsil müəssisələrində tədris edilməsi ilə izah edilməlidir. Yunan mifologiyasından min illər öncə yaranmış Nart dastanları (Qafqaz qəhrəmanlıq dastanları - Нартхэр) isə təəssüf ki, heç öz vətənində də gərəyincə tanınmır. Nart dastanlarının kökü eramızdan 2500 il əvvələ təsadüf edir. Qafqazda - Qara dənizlə Xəzər dənizi arasında yaranmış bu dastanlar daha çox Qafqaz qəhrəmanlıq dastanları kimi tanınır. Bu folklor nümunələri çərkəz, abxaz, çeçen, osetin, adıgey, abazin, balkar, qaraçay, inquş, alban, ləzgi, avar və digər Qafqaz xalqlarının birgə ədəbi irsidir. Quzey Qafqaz xalqlarından olan qaraçay malakarlılar (balkarlar) nartları bu gün də öz dastanları bilir və hətta öz atalar sözlərinə “Nart sözü” deyirlər.
Bütün Qafqaz nart dastanlarında qəbilənin anası sayılan qəhrəman qadın Satanay surəti mövcuddur. “Ən çətin anlarda nartlar onlara yol göstərən müdrik Satanaya müraciət edirdilər”.[23] Maraqlıdır ki, bu dastanlarda Satanayın əri yoxdur. Ona “Ərsiz Satanay” deyirlər. Deməli, Satanay qəbilənin başçısı - Baş Amazon hesab edilirmiş. Nurbij Q. Lovrace nart dastanlarından bəhs edərkən yazır: “Несмотря на мифологичность и фантастичность Эпоса, он (Нарты) можеть работать как исторический источник в комплексе наук (Eposun mifikliyi və fantastikliyinə baxmayaraq, o, elmlərin məcmusunda tarixi mənbə kimi istifadə edilə bilər)”.[24]

[23] *Нарты.VII . Сатанея и Тижасп. Абазинский народный эпос. Черкесск, 1975.*
[24] *Нурбиж Г. Ловрадже. Нартской эпос адигеев и археология. 6. Международный Коллегиум Европейского Объщество Кавказология, 1992, Мазкоп. С161.*

# Dədə Qorqud dastanında amazon ruhu

Sonradan İslamı qəbul etmiş oğuz türklərinin məşhur «Kitabi-Dədə Qorqud» dastanını amazonların tədqiqi məqsədiylə bir daha dərin təhlil etmək lazımdır. V.V.Bartolda görə, dastanda təsvir olunan, qəti şəkildə XII əsrdə təşəkkül tapmış və oğuz türkləri ilə bağlı olan hadisələr ərazi cəhətdən Qərbi Qafqazın Mərkəzi hissəsinə, həmçinin Şərqi Anadolunun şimal-şərq hissəsinə və Qərbi Azərbaycan yaylasının ərazisinə təsadüf edir.[25]
"Введение в гендерную науку (Gender elminə giriş)" adlı araşdırmanın 1-ci cildində albanşünas alim, professor, doktor Fəridə Məmmədova və gənc tarixçi doktor Ülviyyə Hacıyeva dastanda amazon ruhunun bir qırmızı xətlə keçdiyini çox ciddi şəkildə araşdırmışlar.[26] Qeyd etmək lazımdır ki, Dədə Qorqud eposunun iki əlyazması mövcuddur. Onlardan biri Drezden şəhərində, digəri isə Vatikanda saxlanılır.
"Qorqudun anası" əfsanəsi Azərbaycan şifahi xalq ədəbiyyatında amazon izlərinin araşdırılması baxımından xüsusi maraq kəsb edir. Əfsanədə Qorqudun anası dənizdən doğulan Amazon, atası quru torpaq oğlu Türkdür. Oğuz elinin gələcək ağsaqqalını körpəlikdən atası böyüdür. Uca bir dağın başında, anasının şərəfinə Amazon (Amanqız) qalası ucaldılır. Qorqudun anasının amazon (Amanqız) olması bir çox başqa oğuznamələrdə də deyilir.
Yazılan tədqiqat əsərimdə Dədə Qorqud dastanında Amazon ruhu geniş tədqiq edilir.

***Gilbat Argaund:*** *"Amazonlar mif deyil, tam ayrıca bir tarixdir".*
***Sueton:*** *"Amazonlar kiçik Asiyanı öz əsarətləri altına almışlar".*
***Lusias:*** *"Amazonlar ilk dəfə olaraq dəmir yay-oxdan istifadə edən və ilk at çapan insanlar olmuşlar".*
***Hippokrat:*** *"Amazonlar 3 düşmən öldürüncəyə qədər bakirə qalırdılar. Onların sağ döşləri olmazdı, uşaqlıqda anaları bunu dağlayırdılar ki, burada inkişaf dayansın və bütün güc sağ kürəyinə və sağ qoluna keçsin".*
***Lun Vebster Vilde:*** *"Get və öz gözlərinlə gör. Ümumi qəbul edilmiş hipotezilərin sənə hakim kəsilməsinə yol vermə. Mən anladım ki, ziyalılar öz ağıllı arqumentlərinə vurulublar. Onların heç birisi öz yazı stollarını, kompyuterlərini tərk edib amazonları həqiqətən axtarmağa hazır deyil".*[25]
***Roma İmperiyasında döyüşçünü tərif edərkən:*** *"O, əsl bir amazon kimi döyüşdü" – deyərdilər. Təsadüfi deyil ki, Roma İmperatoru Keiser Commodus 170-ci ildə Roma xalqı qarşısında Kolesseumda belə bir şüarla salamlandı: "Sən dünyanın hökmdarısan. Sənin şöhrətin amazonların şöhrətinə bərabərdir!"*
***Arxeoloq Prof. Renate Rolle:*** *"Amazonların antik dövrdə mövcudluğundan bu gün söhbət açmaq mümkündür".*
***Thomas von Gleni:*** *"İndiyə qədər heç bir kimsə bu əfsanəvi cəngavərlərin əsl tarix olduğunu əldə olan tapıntıları birləşdirərək açığa çıxarmağa cəsarət etməmişdir".*
***Lun Vebster Vilde:*** *"Mən bilirdim ki, Ukraynada və Rusiyada silahla dəfn edilmiş çoxlu qadın qəbirləri aşkar edilmişdir. Lakin o arxeoloqlarla əlaqələr qurmaq mənim üçün çox böyük çətinliklər yaradırdı (Yalnız Janin-Davis Kimball istisna olmaqla). Onlar yalnız rus dilində danışır, ya da mənimlə əlaqəyə girməyi heç istəmirdilər".*

---

*[25] "Salur Qazanın evinin yağmalandığı boy", "Kitabi-Dədə Qorqud", Tərtib F. Zeynalov və S.Əlizadənindir. Bakı, «Yazıçı», 1988, Səh.146-147.*
*[26] Мовсумова Л.Д. Проблемы женщины в духовной культуре Азербайджана. - Баку, 1996.*



# Alazan

Alazan (Qanıxçay) Kürün ən böyük sol qoludur. Mingəçevir su anbarına tökülür. Uzunluğu 351 km, hövzəsinin sahəsi 10,8 min kvadrat km-dir. Başlanğıcını Gürcüstan ərazisində Baş Qafqaz silsiləsinin Borbalo dağından (2837 m) götürür. Orta və aşağı axımı Gürcüstan ilə Azərbaycanın Balakən, Zaqatala, Qax rayonları arasında dövlət sərhəddini təşkil edir. Alazanın tarixinə gəlincə, mənbələr hələ e.ə. 387-ci ilə qədər Alban dövlətindən bəhs edərkən onun İori - Alazani çayının orta axınından Xəzər dənizinə qədər Kür çayının hər iki sahilini tutduğunu yazırlar.
2007-ci ildə Azərbaycanın Zaqatala rayonu ərazisində, Alazan çayı vadisində tapılmış neolit dövrünə və alban mədəniyyətinə aid arxeoloji tapıntılar bu tədqiqatımız üçün xüsusi əhəmiyyət daşıyır.
Roma sərkərdəsi Qney Pompeyin (e.ə. 106-48) Cənubi Qafqaz ölkələrinə yürüşləri zamanı - e.ə. 66-cı ildə işğalçı Roma legionları ilə alban hökmdarı Oroysun ordusu arasında baş verən qanlı döyüşün indiki Azərbaycanın Qax rayonunun Zərnə və Güllük kəndləri arasındakı ərazidə olması güman edilir. Bir çox tədqiqatçılar Güllük adının orada tarixən yaşamış gel tayfalarının adından götürüldüyünü ehtimal edirlər. Bəzi mütəxəssislər o cümlədən, türk tarixçisi Osman Kurt amazon adının Alazan, sonra Alizoni, sonra isə amazon sözünə çevrildiyini yazırlar. Bu barədə fikirlər müxtəlifdir və demək olar ki, Alazan çayının tarixi indiyədək araşdırılmayıb.



*Fluss Alazan*

# Pəri qalası (Armatay)

Azərbaycanın Qax rayonunun Güllük kəndi yaxınlığındakı Armatay dağının zirvəsində yerləşən möhtəşəm qalaya indi Pəri qalası deyirlər. Bəzi tarixçilər Pəri qalasının e.ə V-III olduğunu bildirir. Bu qalanı araşdıran və onun haqqında ilk dəfə yazan rus tədqiqatçısı A.İ. Fon Plotto onun gürcü kraliçası Tamaranın (1184-1212) şərəfinə tikildiyini deyir. Amma Pəri qalasının tarixinin daha qədimliyini ehtimal etməyə əsas verən tutarlı faktlar çoxdur. Məsələn, bir çox mənbələrin məlumatına görə, bu qala Ay ilahəsi Armanın şərəfinə tikilib. Arma Het mifologiyasında Ay ilahəsinin adıdır. Amazonların Qafqazın dağlıq ərazilərindən Kiçik Asiyaya köçməsi fikrini irəli sürən tarixçilər az deyil. Antik mənbələr amazonların da Ay ilahəsinə sitayiş etdiklərini yazır. Onu da qeyd edək ki, bu inanc qədim yunanlara da doğma idi. Hərçənd onlar Armanı öz ölkələrində başqa adla - Selene kimi tanıyırdılar.
Amazonların Aya sitayiş etmələrini arxeoloji qazıntılar zamanı üzə çıxarılan ayparaşəklli təbərzinlər, daşdan düzəldilmiş aypara formalı bəzək əşyaları və bu günə qədər Qafqazda təzə ay çıxarkən qadınların salavat çevirmələri də təsdiq edir.
Pəri qalası da elə Armatay olaraq qalmışdı. Sonralar Qafqaz Albaniyasında geniş yayılan xristianlıq bu məbədi, təbii ki, xristian ibadətgahına çevirmiş olmalı idi. Pəri qalasının içinə yalnız dağın başından kəndirlə düşməyin mümkün olduğunu söyləyirlər. Tədqiqat ərəfəsində qalada arxeoloji qazıntılar aparılması planlaşdırılır və savaşçı Qafqaz qadınlarına aid arxeoloji tapıntıların bu bölgədə üzə çıxarılması gözlənilir.



*Pəri qalası. Zaqatala*

# Sarıbaş

## Amazon kəndi

Əsrarəngiz Böyük Qafqaz sıra dağlarının qoynunda yerləşən qədim Sarıbaş kəndinin sakinləri yaddaşlarında amazonlarla bağlı neçə-neçə ifadələr, folklor nümunələri yaşadır.

Yaşı 70-i haqlayan, 40 ildən artıq Sarıbaşda ədəbiyyat müəllimləsi işləmiş Ayişət Xəlilovanın qoca nənələrdən eşitdikləri: "Sarıbaşda qadına ehtiram çox güclü olub. Burada çox igid, cəsarətli qadınlar yaşayıblar. Qadınlar at belində uşaq dünyaya gətirib, ova çıxıb, təsərrüfat işləri ilə məşğul olublar. Hətta belə bir deyim də var ki, sərkərdə analar qəhrəman oğullarını yəhərdə dünyaya gətiriblər".

Sarıbaşlı Abdulla Əhməd, Azərbaycan Memarlıq ve İnşaat Universitetinin müəllimi: "İndiyə qədər Sarıbaşa bir tarixçi, bir arxeoloq ayağı dəyməyib. Bu kəndin qədim tarixini kimsə araşdırmayıb və biz elə özümüz də tariximizə biganə qala-qala tariximizi unutmuşuq."

Sarıbaşda qadınlar indi də min illər bundan əvvəlkindən o qədər də fərqli yaşamırlar. Kişilər tarlada gözə dəymir. Burada bütün təsərrüfat işlərini indi də qadınlar görürlər. Meşədən odun daşıyır, ot biçir, at belində gəzirlər.

Sarıbaş qadınları da təzə ay görəndə salavat çevirirlər. Sarıbaşda savaşçı Qafqaz qadınlarının neçə-neçə açılmamış sirləri yatır. Burada arxeoloji qazıntılar aparmaq çox zəruridir. Sarıbaşda canlı amazonları at belində, tarlalarda gördüm və onların dağlar qoynunda yabanı həyatlarının şəxsən şahidi oldum.



*Sarıbaş kəndi*

# Laza

Xaçmaz rayonunun Laza kəndi Qafqaz dağlarının şimalında - Şahdağ (zirvəsi dəniz səviyyəsindən 4242 metr yüksəklikdədir) dağının yamacında yerləşir. Burada qədim, üçmərtəbəli qəbiristanlıq var. Qəbiristanlıq təpənin üstündə yerləşir. Yaşı bilinməyən bu kənd dəfələrlə yenidən qurulub və dağın bir yamacından digərinə doğru yerini dəyişib. Yəqin ki, yüzilliklər boyunca yeni qəbiristanlıq köhnə qəbristanlığın üzərində salınıb.

10 avqust 2010-cu il. Laza kəndində bir gün öncə yağan şiddətli yağışın yaratdığı sel köhnə qəbristanlığın yarısını demək olar ki, yuyub aparmışdı. Qəbirlərin üstü açılmışdı və hər tərəf skeletlərlə dolu idi.

İllərdir ki, arxeoloji qazıntı aparmaq ən böyük arzum idi. Birdən-birə arzum sanki çin olmuşdu. Qaldığım evdən bel gətirməyə gedərkən fotoaparat, videokamera və kənddən şahidlər də gətirərək ömrümdə ilk tədqiqat xarakterli qazıntıya başladım. Skeletin omba sümüyündən onun kişi və ya qadına məxsus olduğu və ayaq sümüklərinin əyriliyindən onun uşaq vaxtında çoxlu at çapmış olmuş olmasını bilirdim. Qadın sümüklərini bir tərəfə yığdım. Qadın skeletlərindən birinin başından balta ilə yarıldığı açıq görünürdü və bu da onun savaşda ölmüş olmasını təxmin etməyə imkan verirdi. Çox dəqiqliklə sümükləri müayinə etdim və sonra yeni qəbir qazaraq yenidən basdırdım.

Gecə evində qonaq qaldığım qadın mənə dedi ki, onun bu kənddən olan nənəsi həmişə ona layla çalarkən bu mahnını oxuyardı: “Sən mənim amazonumsan, mənim amazonum”.

Laza qadınları bu günə qədər təzə Ay doğan zaman salavat çevirir. Amazonlar da Aya dua edərmişlər. Qafqazda qazıntılar zamanı tapılan təbərzin baltalar və peltalar da əsasən Ay formasında işlənilib.



*2010 avqust Laza kəndi. N.A.*

Laza dağlarında tədqiqini gözləyən çoxlu maraqlı mağaralar var. Orada bu günə qədər heç bir arxeoloji qazıntı aparılmayıb. Hərçənd, illərdir Azərbaycanda DAİ (Alman Arxeologiya İnstitutu) və digər Avropa arxeologiya institutları ilə birlikdə müxtəlif müştərək arxeoloji qazıntılar aparılmaqdadır.

# Xınalıq

Xınalıq kəndi Böyük Qafqaz dağlarında, Azərbaycanın  şimal hissəsində tektonik zonada yerləşən bir kənddir. Dəniz səviyyəsindən 2200 metr yüksəklikdədir. Xınalıqlılar özlərinə məxsus xüsusi bir dildə danışırlar. Bu dilin 63 hərfdən ibarət əlifbası da var. Xınalıq təbiəti mühafizə qoruğudur. Kəndin tarixi çox qədimlərə söykənsə də hələlik əsl tarixi tam araşdırılıb üzə çıxarılmayıb.

Dağ sakinlərindən kəndin tarixini bilən yox idi. Onlar deyirdilər: "Heç kim bizim tarixi tədqiq edə bilmir və ya tədqiq eləmək istəmir. Biz elə bir dildə danışırıq ki, dünyada heç kim bu dildə danışmır. Bildiyimiz təkcə budur ki, biz ketlərə aidik".

Xınalıqda rast gəldiyim,  sacda lavaş bişirən Mafruz xala  ulu nənələrindən eşitdiklərini uzun- uzadı danışmağa başladı. Onun dediyinə görə, Xınalıqda da analar körpələrinə layla çalarkən oxuyarmış:

"Sən mənim amazonumsan, mənim amazonum".

Mafruz xala zirvəsi buludlarda gizlənən 3000 metrlik dağı mənə göstərib dedi: "Bax, o yuxarıda bir mağara var. Nənəm mənə söylərdi ki, burda bir "Qarı otağı" var. Dağlarda hər kəs ondan qorxardı. Kənddə bir özbaşınalıq olanda, o mağaradan Qarı kəndə enər, aləmi bir-birinə qatar, hamı qorxusundan sakit olardı. O mağaraya qalx-



*Xınalıq. Qarı otağı mağarasına qalxan yol. 2010*

maq çox təhlükəlidir. Orda zəhərli ilanlar var. İndiyə qədər mən oraya kiminsə çıxdığını eşitməmişəm”.

Mən yerli kənd tarix müəllimi  Qurban Abdullayevi də götürərək mağaraya yollandım. Ora bizi aparacaq heç bir yol, dar çığır, hətta iz yox idi. Güman ki, illərdir, əsrlərdir bu yerlərə heç kimin ayağı dəyməyib.

Nəhayət ki, mağaranı tapdıq. İnanılmazdı. Mafruz xalanın bizə danışdığı kimi (onun özü heç zaman orada olmayıb) yuxarıda yerli əhalinin “Qarı otağı” adlandırdığı bir sığınacaq vardı. Çox güman ki, digər qadınlar aşağıda yaşamışlar. Sığınacağa 50-60 insan yerləşə bilərdi. “Qarı otağı”nda çox güman ki, qadın hökmdar, ana xaqan yaşamışdır. Yaxınlıqda da çoxlu sayda qədim mağaralar var idi.

Xınalıqda da indiyə qədər köklü tədqiqat və arxeoloji qazıntılar aparılmayıb.

# Əsəd Bəyin XX əsrdə Qafqazda  kəşf etdiyi amazon tayfaları

Azərbaycanın dünya şöhrətli yazarı Məhəmməd Əsəd bəy (Qurban Səid, 1905-1942) “Qafqaz (dağları, xalqları və tarixi)” əsərinin “Zaqatala” fəslində (səh.100-104) “Zaqatalanın böyük möcüzəsi” adlandırdığı amazon tayfalarından bəhs edir: “Zaqatalanın böyük bir hissəsi qətiyyən araşdırılmayıb. Bir çox gözlənilməz nəticələr soyuqqanlı səyyahların Zaqatalanın balta dəyməmiş meşələrinə, dağlarına və dərələrinə ilk yol açmasını gözləyirlər”.
Əsəd Bəy Zaqatalanın yaxınlığındakı bir dərədə yaşayan, qeyri-adi həyat tərzinə malik tayfalardan söhbət açır. Ədib təsadüfən gəlib çıxdığı həmin dərədə “Zaqatalanın böyük möcüzəsi” - yəsai amazonlarının yaşayış məskənləri ilə rastlaşdığını qələmə alıb:[27] “O zamana qədər yəsai tayfaları mütəxəssislərə hələ naməlum idi. Bu səbəbdən də mənşə məsələsinə böyük önəm verən qonşuları onları sadəcə “keçmişini bilməyən xalq”, onların həyat tərzinə yaxşı bələd olanlarsa “gənc qızlar xalqı” adlandırırdılar”.

**Yəsailər**

Sadəcə tayfanın əks cinsli üzvlərinin bir-birindən müəyyən məsafədə məskunlaşdığı, qadınlarının amazon cəmiyyətləri yaratdığı, bir sözlə, ən qədim qafqazlı ənənələrini XX yüzilliyə qədər yaşatmağı bacarmış toplumlar idilər. Təəssüf ki, artıq onlar da müasir texnokratik sivilizasiyanın təzyiqinə tablaşmayaraq digər kütlələrin içində əriyiblər. Buna baxmayaraq Qafqazda savaşçı qadınların irsləri bu günə qədər qalmaqdadır.
Əsəd Bəyin haqqında bəhs etdiyi ikinci qadın toplumu isə Gürcüstanda yaşayan xevsurlardır.

**Xevsurlar**

Vaxtilə, Tbilisi yaxınlığında azad, polisin olmadığı Chevsurien (Xevsuria) adlı yerdə məskunlaşmış bir tayfadır. Əsəd Bəy yazır: “Bu tayfanı yalnız qadınlar idarə edirlər. Onların  əksəriyyəti sarıyanız, mavi gözlü, iri əlləri olan qadınlardır. Vəhşicəsinə at çapmaları və təsərüffat işləri ilə məşğul olmaları ilə qonşu kəndlərin sakinlərindən fərqlənirlər”.

---

[27] *Əsəd Bəy  “Qafqaz (Dağları, xalqları və tarixi)” Deutsche Buch-Gemeinschaft, Berlin 1931. Səh. 100-104.*

# Əcnəbilərin Azərbaycandakı arxeoloji tapıntıları indi haradadır?

1834-cü ildə İsveçrə səyyahı Dübya de Monpere Azərbaycanın indiki Göygöl rayonunun ətrafında 30-a qədər kurqanda və Naxçıvan şəhərindəki türbələrdə arxeoloji qazıntılar aparıb. Əldə etdiyi tapıntıları isə dərhal Fransaya göndərib.[28]
XIX əsrin axırlarında Azərbaycanın Gədəbəy və Daşkəsən bölgələrində Simens qardaşlarının istismar etdiyi mis mədənlərində elektrotexnik vəzifəsində çalışan Valdemar Belhk 1888-1890-cı illərdə 300-dən artıq tarixi abidədə qazıntılar apararaq tapdığı qiymətli maddi mədəniyyət nümunələrini Almaniyanın Berlin, Hamburq və Münhen muzeylərinə göndərib.
Fransız tədqiqatçısı Jak de Morqan da bir neçə il ərzində Misir, İran, Ermənistan və Azərbaycanın müxtəlif bölgələrində arxeoloji qazıntılar aparıb. O, 1890-cı ildə Talış dağlarında bir çox mağara, dolmen və 230-a qədər müxtəlif qəbir abidələrini açaraq tunc dövrünün sonu - dəmir dövrünün əvvəllərinə aid qiymətli maddi mədəniyyət abidələri toplayıb. O, yalnız bir abidədən 16 kq tunc əşya çıxarıb. Bunların çoxu və ən qiymətliləri Fransanın Sen-Jermen muzeyinə verilib.
Qarabağın Şuşa şəhərində müəllim işləyən Emil Resler 1892-1903-cü illər arasında Qarabağda və Gəncədə qazıntılar apararaq qiymətli abidələr çıxarıb. O, həmin abidələri Moskvadakı Dövlət Tarix Muzeyinə və Peterburqdakı Ermitaj Muzeyinə verib. Onun hesabatları hazırda Rusiya Elmlər Akademiyasının Maddi Mədəniyyət Tarixi İnstitutunun Leninqrad şöbəsinin arxivində saxlanır. O, hesabatlarını Moskva Arxeoloji Komissiyasının hesabatlarında və Berlin Antropoloji Cəmiyyətinin illik məcmuələrində nəşr etdirib. 22 iyun 2011-ci ildə Ermitaja səfərim zamanı Qafqaz bölməsində bu eksponatların böyük bir hissəsinə baxa bildim. E.ə. II minilliyin sonu-I minilliyin əvvəllərinə aid edilmiş qolbaqlar, təbərzin baltalar, bıçaq və xəncərlər, ox ucluqları, muncuqlar və s. əşyalar xoşbəxtlikdən burada qorunur.
Sadalanan qazıntıların ümumi cəhəti onların peşəkar tarixçilər tərəfindən aparılmamasıdır. İlk iki avropalı isə ümumiyyətlə, bu qazıntıları hər hansı elmi tədqiqat üçün yox, sadəcə əntiq şeylər toplamaq, onları muzeylərə satmaqla əlavə gəlir əldə etmək məqsədilə aparıb.[29]
Çox yaxşı olar ki, Avropa muzeylərinə vaxtilə satılmış olan həmin eksponatlar gələcəkdə hazırlanacaq Qafqaz amazonları muzeyinə hədiyyə edilsin.

---

[28] *Teymur Bünyadov "Azərbaycan arxeologiyası oçerkləri" Azərbaycan dövlət nəşriyyatı Bakı 1960- Səh 8.*
[29] *Yenə orada, səh 9-12.*

# Böyük İsgəndər Qafqazda

### Böyük İskəndərin Qafqaz Hökmdarı Talestrislə görüşü

E.ə. IV əsrdə bütün dünyaya hökmranlıq etmək arzusu ilə yürüşə başlayan Makedoniyalı İsgəndərin (e.ə. 356-323) Qafqazda olması məsələsinə tarixçilərin münasibəti fərqlidir. Amma antik tarixçilər bu faktı birmənalı təsdiq edirlər.

Siciliyalı Diodor yazır: "Böyük İsgəndər Hirkaniyaya gələndə Tallestris adlı qadın onu qarşılayır. Bu ölkə Faza (Rioni) və Fermodon çaylarını özündə birləşdirir. İsgəndər ona valeh olur və yanında 13 gün qalır. Ona qiymətli hədiyyələr verir. Tallestris az sonra qonşu qəbilə ilə döyüşdə öldürülür".

Curtius Rufus isə Tallestrisin bir hökmdar olduğunu yazır: "Həmin dövrdə Tallestris Qafqaz dağlarından tutmuş, Faza (Rioni) çayına qədərki ərazidə hökmranlıq edirdi. Yuxarı axarları Qara dənizin güneyindən (Pont üzərindən) başlayan Rioni çayı uzun yol keçərək Xəzər dənizinə tökülür".

Makedoniyalı İsgəndərin qədim Qafqaza səfərini təsdiq edən mənbələrdən biri və ən mötəbəri II əsr yunan tarixçisi Flavi Arrianın "İsgəndərin hərbi yürüşləri" əsəridir. Müəllif Azərbaycan-Atropatena, İsgəndərin bu ölkəyə hərbi səfəri, buradakı vuruşları barədə ətraflı məlumat verir. F.Arrian yazır: "Böyük İsgəndər eramızdan əvvəl 324-cü ilin yayında Bağıstan-Bisütuna gəlir. Niseya səhrasında bir ay qalır. Ekbatana gəlir. Yüz amazonla kef məclisləri yaşayır.

Kiçik Midiya (Atropaten) hökmdarı Atropat İsgəndərin ordusunda döyüşmək üçün 100 nəfərdən ibarət qadın döyüşçü göndərir. Amazonlar adlanan bu qadınlar kişi paltarına bənzər paltarlar geyməklə yüngül hərbi yaraq olan nizə, yüngül qalxan, ox və kamanla silahlanmışdılar".

İsgəndər Hirkaniyanın paytaxtı Zadrakartada iki həftə qalıb. Curtiusa görə, buraya onun yanına gələn amazon kraliçası ondan bir uşaq doğmaq arzusunu bildirmiş və onun yanında 13 gün qalmışdı . Curtius bu hadisə ilə əlaqədar "amazon qadının cinsi əlaqəyə olan həvəsinin İsgəndərinkindən daha böyük" olduğunu qeyd edir.[30]

Böyük Qafqazın cənub ətəklərindən birində - Alazan-Həftəran vadisində yerləşən Orta Zəyzid kəndində (Şəki) geniş bir sahəni əhatə edən (indi burada üç-dörd ailənin evi və həyətyanı torpaq sahələri yerləşir) qala divarlarının qalıqları var. Qala tamam dağılsa da onun bürc yerləri və mərkəz günbəzi aydınca sezilir. Zamanın keşməkeşləri təkcə qalanın adına toxuna bilməyib: bu qala yaddaşlarda "İsgəndər Zülqərneyn qalası" kimi yaşayır. İskəndər Misirdə Tanrı Amunun oğlu kimi qarşılandıqdan sonra başındakı dəbilqəsinə Amununki kimi buynuz işlətdirmişdir.

---

[30] *Michael Vood: "Büyük iskenderin ayak izlerinde", Boyut Matbaacılık A.Ş İstanbul 2006, S127-129.*

Böyük İsgəndərin amazon kraliçası Tallestrislə (Tallestris bir çox mənbələrdə son amazon hökmdarı kimi xatırladılır) görüşünü Azərbaycanın dahi şairi Nizami öz "İsgəndərnamə"sində əbədiləşdirmişdir.[31] Nizami Tallestrisin adını Nüşabə ilə əvəz etmiş, lakin bütün tarixi faktlara sadiq qalmış, onları böyük ustalıqla bədii üslubda nəzmə çəkmişdir. Nizami "Dastanın xülasəsi" fəslində yazır ki, o, tarixi mənbələri müxtəlif dillərdə dönə-dönə vərəqləmiş, ən qədim tarixi əsərlərdən - yəhudi, nəsrani, pəhləvi kitablarından "köhnə nüsxələri" əsas götürmüş, ən doğru saydığı sözləri seçmiş, "doğru olmayan sözlərdən" qaçmışdır:
XII əsrdə yazılmış gürcü "Salnamə"si məlumat verir ki, Makedoniyalı İsgəndər Gürcüstana iki dəfə daxil olub. Nizami də Makedoniyalı İsgəndərin Azərbaycana iki dəfə daxil olduğunu deyir. "Böyük İsgəndər Midiyada olarkən orada bəslənən "Nisa" atlarına baxır. Hökmdar 50 000 atı öz ordularına göndərtdirir. Bu atlar o zaman ölkənin hüdudlarından çox-çox uzaqlarda məşhur imiş və hətta Çində onlara "Səma atları" deyirmişlər.[32]
Böyük İsgəndərin amazon kraliçası Tallestrislə görüşünü təsvir edən Curtius Rufus Tallestrisi bədənini ayaqlarının ucuna qədər örtən paltarının üzərindən düyümlü qısa don geyinmiş, sinəsini örtən aypara formalı lövhə, başında isə dəbilqə olan əsl döyüşçü qadın kimi təsvir edir.
Pompeius Trogus (e.ə. I əsr) Böyük İsgəndərin Atropatenaya yürüşünü anladarkən yazır: *"Böyük İsgəndər kaspiləri və midiyalıları yendi. Orada 300 qadınla bərabər amazon kraliçası Tallestris (və ya Minutiya) ondan bir uşaq doğmaq arzusu ilə 35 günlük yol qət edərək, yad qəbilələri keçib İsgəndərin görüşünə gəlir. Onun qeyri-adi gəlişi və görüş anı Böyük İsgəndəri həyəcanlandırır. İsgəndər 13 gün onun yanında qalır. Bundan sonra yenə geriyə qayıdır" (XII Tərcümə O. Sell)*
Böyük İsgəndərin Tallestrislə görüşünü bir çox antik yazarlar, o cümlədən Strabon, Curtius, Rufus və ya Kallisthenes müxtəlif cür təsvir etsələr də, hadisənin məğzi dəyişməz qalır. Qafqaz tarixçisi Moisey Kalankatulu Böyük İsgəndərin Qafqazdan Çolaya keçdiyini yazır.
Qafqaz amazon hökmdarlarından hesab edilən Tallestrisin bugünkü Azərbaycanın Bərdə şəhərinin hakimi olduğu güman edilir. Professor Y.A.Paxomov Bərdədən Böyük İsgəndərin sikkələrini tapmışdır. Bərdədə vaxtilə, qala divarları və onun 4 giriş-çıxış darvazası olub.
V əsrdə Bərdə böyük ticarət məntəqəsi, VI əsrin ortalarından X əsrin ortasına qədər isə paytaxt olub. İbn Hövqəl Bərdəni Bağdad şəhəri ilə müqayisə edərək onu Ümmü-r-Ran, yəni ölkənin anası adlandırır.[33]

---

[31] *Мубариз Халилов. Амазонки и Азербайджан // İrs / Наследие. Москва, № 6, 2003, с. 14-15.*
[32] *Abdulla Fazili, "Atropatena e.ə. IV və b.e. V əsrlər", Bakı, Elm, 1992 S.161.*
[33] *Teymur Bünyadov "Azərbaycan arxeologiyası oçerkləri" Azərbaycan dövlət nəşriyyatı, Bakı, 1960 S. 177.*

Böyük İsgəndər sonra Talestirislə görüşünü təsdiq edib: “Mən onun qızına şərəf verdim”. Bəzi mənbələrin məlumatına görə, Tallestris Atropatın qızı olmuşdur. Lakin bu fakt hələlik öz təsdiqini tapmamışdır.

Teymurləng Qafqazı işğal edərkən onun Bərdənin hakim qadını ilə meydanda tək-bətək vuruşması barədə salnaməçi qeydləri var. “Dərbəndnamə” və bir çox digər mənbələrdə Böyük İsgəndərin Dərbənd qalasını tikdirdiyi və yaxud təmir etdirdiyi qeyd edilir.

Lakin bəzi tarixçilər, o cümlədən Strabon İsgəndərlə Nüşabənin görüşünə və ümumiyyətlə, amazonların varlığına şübhə edir. Strabon eyni zamanda Qafqaz albanlarının puldan anlamadıqlarını və heç saymağı belə bacarmadıqlarını yazır. Lakin son Qafqaz arxeoloji qazıntılarının nailiyyətləri sübut edir ki, Qafqaz Albaniyasının daxili və xarici ticarət əlaqələri yüksək səviyyədə olub. Onların öz xüsusi dili, əlifbası olduğu kimi, eyni zamanda pul vahidi də olub. Deməli, antik tarixçilərin bir çox qüsurlu məlumatları ilə kifayətlənmək doğru olmazdı. Əksinə, yenidən köklü araşdırmalar apararaq əsl tarixi miflərdən ayırmağın, minilliklərin torpaq altındakı sirlərini açmağın əsl zamanıdır.

# Qız qalası

Müxtəlif tarixçilər Bakıdakı Qız qalasının e.ə. I minillikdə, bəziləri daha sonralar - orta əsrlərdə inşa edildiyini deyir. Amma bu qalanın çox-çox əvvəl tikilməsi ehtimalı güclüdür. Bir sıra arxeoloqların fikrincə, Qız qalasının aşağı hissəsinin ən azı 2600 yaşı var. Bu müqəddəs məkanı neolit və ya erkən tunc dövrünə aid edirlər. Azərbaycanın tarix və memarlığının unikal nümunəsi olan Qız qalası təkcə dini, müdafiə və elmi (astronomik) baxımdan deyil, həm də ezoterik baxımdan çox əhəmiyyətlidir. Elə buna görə də şəhər folklorunda həm Qız qalasının özü, həm də onun adı haqda çoxlu rəvayətlər var. Abidənin quruluşuna əsaslanaraq onun tarixini qədim dövrlərə çəkib aparan tədqiqatçılar Qalanın Zərdüşt dövrünə aid Zərdüşt daxması, atəşpərəstlik məbədi, Mitra və Anahita ilahələri ilə əlaqədar tikili olduğunu söyləyirlər. Bu tədqiqatçıların ehtimalına görə, atəşgah məbədi olan Qız qalası e.ə. VIII-VII əsrlərdə Kaspiana və Midiyanın bürclü məbədlərinin təsiri ilə Xəzər dənizi sahilində, təbii yanan atəşlərin arasında, məhz “Tanrının şəhəri” - Bhaqavanda tikilə bilərdi. Bir çox alimlərin fikrinə görə, Qız qalasının Çıraqqala müdafiə qalasına bənzərliyini əsas götürüb onun Gilgilçay müdafiə sisteminə aid olduğunu da söyləmək, və ya onun şimal-şərqi Albaniyanın müdafiə qalalarındakı memarlıq elementləri ilə oxşarlığını qeyd edərək onu eramızın V-VI əsrlərinə aid etmək olar. Bu qala haqqında minlərlə əfsanələr var. Bu əfsanələrin içərisindən ən maraqlısı və həqiqətə ən yaxın hesab etdiyim budur:

“3 sıra divarlarla əhatə olunan qədim Badikubə şəhəri 90 gün İran hökmdarının mühasirəsində qalır. Bu divarların iç üzündə isə Gülsüm dənizinin sahilində yerləşən qara, üstündən tüstü qalxan məbəddə Odlar Yurdunun paytaxtını xilas etmək üçün bütün mərasimlər həyata keçirilirdi. Od məbədinin baş kahini Yegirvand (başqa bir nüsxədə Mobedan) mərasimləri keçirdikdən sonra xalqa elan edir: “Sabah şah öldürüləcək! Onu məsum bir qüvvə məhv edəcək!” Bu vaxt məbədin qapısı açılır və ocağın başında əlində odlu qılınc, od rəngli uzun saçları olan Od Qızı peyda olur. Qız məbəddən çıxır və baş kahinə yaxınlaşır. Kahin ondan odu heç zaman sönməyən bu diyarın paytaxtını - Tanrının müqəddəs şəhərini və müqəddəs məbədi xilas etməyi xahiş edir. Qız, şahın iqamətgahına gəlir və öz vəzifəsini yerinə yetirərək onu öldürür. Od Qızı öz müqəddəs borcunu yerinə yetirərək yurddaşlarını azad edir, lakin öz əli ilə öldürdüyü düşmən sərkərdəsinə aşiq olur. Sevimli adamın ölümündən sonra yaşamaq istəmədiyinə görə özünü məbədin qarşısında qılıncla öldürür. Od məbədində odlar sönür. Bundan sonra qala qızın şərəfinə Qız qalası adlanır”.[34]

Tarixçi-memar D.A. Axundovun qənaətinə görə, bu əfsanə Zərdüştiliyin rəsmi din kimi qəbul edildiyi (e.ə. VI əsr) vaxtdan xeyli əvvəl, yəni e.ə. VII-VI əsrlərdə yaranıb. Zərdüştiliyin yayılması ilə amazon qəbilələri, qadınların cəmiyyətdəki hakim rolu süqut etməyə başladı.

---

[34] *Mehdiyeva Aytən Azərbaycanda qız qalalarının tarixi Bakı Elm 2000 S. 64-65.*



*Qız qalası Bakı*

# Dərbənd

Dərbənd bu gün Rusiya Federasiyasının Dağıstan Respublikasının ərazisinə aid edilən qədim Azərbaycan şəhəridir. Dərbənddə bir çox qız qalaları, qayalar, Qırxqızlar qəbiristanlığı və s. kimi indiyə qədər tədqiq edilməmiş tarixi obyektlər var. Onların elə təkcə adları savaşçı Qafqaz qadınlarına məxsusluqlarını ehtimal etməyə və araşdırmağa kifayət qədər əsas verir.

Dağıstanın Böyük Buynak kurqanından (1899)üzərində təbərzin balta şəkilləri olan çoxlu bəzək əşyaları aşkar edilmişdir. Dərbənd Qalası Muzeyində savaşçı qadın silahları və savaş paltarı, dəbilqəsi və s. saxlanılır. Eyni zamanda, Dərbənddə də bir çox mağaralar, qız qalaları, Axtı rayonunda və qədim Maza kəndində tədqiqatların aparılması bu tədqiqatın əsas obyektlərindən biri kimi diqqət mərkəzində saxlanır.





*Dərbənd qalası*

# Amazon tədqiqatlarında son elmi baxışlar

2010-cu ilin sentyabr ayından 2011-cil ilin fevral ayına qədər Almaniyanın Rheinland-Pfalz əyalətinin Speyer tarix muzeyində “Amazonlar - savaşçı qadınlar” adlı sərgi nümayiş etdirildi. Eksponatlar sərgiyə borc alınaraq Berlin, London, Paris, Neapol, Kiyev, Tbilisi muzeylərindən gətirildi və sərgidə son illərin bir çox arxeoloji tapıntıları dünyaya ilk dəfə təqdim edildi. Dünyanın ən qədim savaşçı qadını olaraq, əsas eksponat Tbilisidən gətirilən və e.ə. II minilliyə aid edilən bir savaşçı qadın qəbri idi. 14-16 yanvar 2011-ci ildə Speyer Pfalz Tarix Muzeyi tərəfindən bu mövzuda elmi konfrans keçirildi. Bu sərgi və konfrans təbii ki, amazonların Qərbdəki tədqiqi sahəsində ilk addım olaraq çox təqdirəlayiqdir. Lakin mənim fikrimcə, sərgi tələsik və üzdən aparılmış tədqiqatlar əsasında hazırlanmışdı. Həm sərgidə, həm də konfransda yunan mifologiyası və skitlər dövrünə, Herodotun və Homerin zamanından başlayaraq sonrakı dövrlərə daha çox önəm verildi. Ümumiyyətlə, indiyə qədər Qərb tədqiqatçıları Qafqazda, xüsusilə Cənubi Qafqazda amazon və yaxud savaşçı qadınları tədqiq etməyiblər.
Amma buna baxmayaraq, Tbilisidən (Gürcüstan) gətirilən, 30-40 yaşlarında həlak olması təxmin edilən savaşçı qadına məxsus qəbir sərgidə ən qədim (e.ə. II minillik) eksponat kimi dəyərləndirildi və beynəlxalq tədqiqatçıların böyük marağına səbəb oldu. Muzey tərəfindən 2010-cu ildə buraxılmış sərgiyə dair kataloqda da həmin qəbrin tarixi e.ə. II minillik olaraq göstərilib.[35] Lakin Muzeyin mətbuat üçün açıqlamalarında həmin qəbir düz min il fərqlə - e.ə. I minilliyə aid edilir.[36] Gürcüstanlı arxeoloq Georgi Nioradzeyə görə isə, “bu savaşçı qadın yalnız e.ə. 8-7-ci əsrlərə aid” edilə bilər. (Bax: Səh 10-11) Bu anlaşılmazlıq həmin qəbrin və bir çox Qafqaz savaşçı qadın qəbirlərinin bir daha diqqətlə araşdırılmasına ehtiyac olduğunu göstərir.
Bu baxımdan belə hesab edirəm ki, Qafqaz amazonlarının köklü tədqiqi dünya amazon tədqiqatında bir dönüş yarada bilər. Qafqaz amazonları monoqrafik tədqiqat mövzusu və elmi dissertasiya olaraq ilk dəfə işlənir və dünyanın ən qədim savaşçı qadınının e.ə. II minilliyə aid Plovdağ-II savaşçı qadın qəbri olduğu sübuta yetirilir. Bu fakt amazon tədqiqatlarının beynəlxalq miqyasda, müştərək bir tədqiqat layihəsi olaraq və köklü şəkildə davam etdirilməsini tələb edir. İndiyədək Qafqazın müxtəlif bölgələrindən təsadüf nəticəsində üzə çıxarılmış tapıntıların torpaqlar altında qalan hissəsi peşəkar arxeoloqların, tədqiqatçıların yolunu gözləyir.

[35] *Amazonen Geheimnisvolle Kriegerinnen. Historisches Museum der Pfalz Speyer.2010 S. 174.*
[36] *http://www.museum.speyer.de/dyndata/Pressemappe_Amazonen.pdf.*

# Nəticə

Qafqaz savaşçı qadınları mövzusu monoqrafiya şəklində Qafqazda ilk dəfə işlənir. Kitabça 15 illik tədqiqatların nəticələrini dünya ictimaiyyətinin diqqətinə çatdırır. Bu tədqiqatın yeniliyini, elmi əhəmiyyətini nəzərə alaraq, onun obyekt və predmetini öz metodoloji bazası əsasında elmi-tarixi sistemlə bağlı müqayisəli təhlil etməyi məqsədəuyğun saydıq. Elmdə yeni nailiyyət olaraq, dünyanın ən qədim savaşçı qadın qəbrinin məhz Naxçıvan Plovdağ-II-dən tapılması faktı, Qafqazın dünya metallurgiyasının beşiyi kimi təsdiqi, savaşçı qadınların istifadə etdiyi silahların (balta-təbərzin və s.) e.ə. II-I minilliklərdə Qafqazda hazırlanmış olmasının elmi-məntiqi sübutu əsas məqsədimiz oldu. Dünya mədəni irsinə aid olan Qobustanda amazonların izləri, Ana zağa mağarası, son illərdə Qafqazın bir çox bölgələrindən aşkar edilmiş savaşçı qadınlara aid arxeoloji tapıntılar, hələ 1926-cı ildə rus alimi Meşşaninovun aşkar etdiyi savaşçı qəbri, Saleh Qazıyevin Mingəçevirdə aşkar etdiyi taxta qutulardakı silahlı qadın məzarları və s. bütün bu elmi nailiyyətlərin dünya ictimaiyyətinə təqdim edilməsinin labüdlüyünü, Qafqazın hər tərəfindən toplanacaq bu tapıntılardan ibarət bir sərginin hazırlanmasının vacibliyini göstərir. Eyni zamanda, Qərb tədqiqatçılarının amazonlarla bağlı mövcud tədqiqatları ilə tanış olmaq üçün onların iştirakı ilə beynəlxalq elmi konfransın təşkili son dərəcə əhəmiyyətlidir.
Gələcək tədqiqatın istiqaməti aşağıdakı mövzular üzrə olacaq:
1. Dünyanın ən qədim savaşçı qadınları Qafqazda, xüsusilə Azərbaycan, Azərbaycanın Dağlıq Qarabağ bölgəsi, Dağıstan, Gürcüstan və indiki Ermənistan ərazisində yaşayıblar.
2. Qobustandakı Ana zağanın ilk amazon mağarası olması ehtimalı var.
3. Dünyanın ilk metallurgiya mərkəzləri Qafqazda olub.
4. Müxtəlif mənbələrə əsaslanaraq Böyük İsgəndərin Tallestrislə Qafqazda görüşünü söyləmək mümkündür.
5. Qafqaz mifologiyasının, xüsusilə e.ə. 2500-ci ilə aid edilən Nart qəhrəmanlıq dastanlarının yunan mifologiyasından qədimliyini sübut etmək mümkündür.
Bu araşdırmalar amazonların bir mif deyil, gerçək tarix olduğunu sübut edəcək.
Tədqiqatlar davam edir. Qafqaz dağlarında gizlənmiş hələ çox dəfinələrin aşkara çıxarılması gözlənilir. Yuxarıdakı tezis və fikirlərin bir çoxu mütəxəssislər tərəfindən hələ mübahisəli sayılır. Amma təbii ki, bu mübahisələrin özü də elmi əhəmiyyət kəsb edir. Çünki mübahisə həmişə sonda həqiqəti ortaya gətirir. Amazon adının Alazan çayının adından alınması, Novruz bayramının amazonların irsi olması və s. araşdırmalara ehtiyac duyan məsələlərdir.
Çoxəsrlik Qafqaz tarixinin, keçmişinin, hətta eramızdan əvvəlki tarixinin tədqiqi (istər arxeoloji, etnoqrafik, antroplologi, istərsə də ədəbi, mədəni bucaqlardan) həmişə böyük maraq doğurmuşdur. Bu tədqiqatların hər bir mərhələsinin elmi-nəzəri yöndən araşdırılmasının özünəməxsusluq kəsb etdiyini nəzərə alsaq, amazonların tarixinin tədqiqat obyektinə çevrilməsi milli-mənəvi dəyərlər baxımından da, nəzəri-praktiki tələbat kimi də önəmlidir.

# Rəylər

**Milli Məclisin Mədəniyyət komitəsinin sədri, professor Nizami Cəfərov:**

“Mən Nuridə Atəşini dünyanın ən qədim savaşçı qadınının məhz Azərbaycandan – Plovdağ-II-dən tapılması faktının ortaya çıxarılması münasibətilə təbrik edir və bunu Azərbaycan elminin uğuru hesab edirəm. Biz bu beynəlxalq tədqiqatı həm Avropada, həm də Azərbaycanda maddi və mənəvi yöndən dəstəkləməklə, sərginin, elmi konfransın keçirilməsi, hətta Qafqaz amazonları muzeyinin açılmasına dəstəyimizlə dünya ictimaiyyətinin diqqətini Azərbaycana yönəltmiş, ölkənin beynəlxalq imicinə təkan vermiş olarıq. Mən Nuridə Atəşinin xaricdə ölkəmiz üçün göstərdiyi müxtəlif sahəli fəaliyyətini yüksək qiymətləndirir, onu ciddi bir alim kimi qəbul edir, onun öz tanınmış ismi və bu amazon tədqiqatı vasitəsilə Azərbaycanın mədəniyyətinə, elminə önəmli bir töhfə verəcəyini gözləyir, buna inanıram”.

**Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru professor Fəridə Məmmədova:**

“Nuridə Atəşinin təqdim edilən işi ciddi araşdırma olub, amazonlar haqqında elmə məlum olan əfsanəni reallığa çevirir. Bu reallaşmanın əsasında Nuridə Atəşinin “Avesta”, qədim (yunan və latın) dövrlərin və ilkin orta əsrlərin alban mənbələri əsasında apardığı böyük araşdırma işi durur.
Bu iş arxeologiya və etnoqrafiyanın təqdim edilən, müqayisə edilən və düzgün şəkildə araşdırılan geniş bilgilərinə əsaslanır. Nuridə Atəşinin çoxillik araşdırmaları amazonların Patriarxatlığa qarşı durmağa çalışan bir toplum olaraq Matriarxatlığın müəyyən dövründə meydana gəldiyini, onların müəyyən hissəsinin Azərbaycanın şimal-qərb hissəsində də məskunlaşdığını deməyə əsas verir. Nuridə Atəşi cəlb edilən bilgiləri düzgün təhlil edib. Bu bilgilər amazonların məişətini canlandırır və belə bir nəticəyə gəlməyə imkan verir ki, amazonların vətəni Şimali-Şərqi Qafqaz olub və bu, bir reallıqdı. Avropa elmində bu məsələnin aktuallığını nəzərə alaraq mən Nuridə Atəşinin araşdırmasının Elmlər Akademiyasında çapını tövsiyyə edirəm”.

**Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Kamal Əliyev:**

“Nuridə Atəşinin təqdim edilən işi Qafqaz tarixinin az öyrənilən və qarışıq səhifəsinə həsr olunub. Bu mövzunun araşdırılması zamanı müəllif arxeologiya, etnoqrafiya,

tarix, coğrafiya, kulturologiya və ədəbiyyat kimi elm sahələrinə dair araşdırmaların nəticələrindən istifadə edib. Bəzi elm adamlarının amazonların Vətəninin Yunanıstan olması barədə iddiaları müəllifdə əsaslı olaraq şübhə doğurur. Əslində isə Nuridə Atəşinin də istinad etdiyi Azərbaycan alimlərinin araşdırmaları sübut edir ki, amazonların tarixi vətəni Qafqaz, xüsusi ilə, Qədim Qarabağ və Naxçıvandır.

Genişmiqyaslı və məsuliyyətli bir tədqiqatın hələ başlanğıcında olan Nuridə Atəşinin çox lazımlı və faydalı işlə məşğul olduğunu hesab edirəm. Lakin tədqiqatında hələ bir çox çatışmazlıqların olduğunu görür və bunların aradan qaldırılmasını tədqiqatçıya tövsiyə etməklə bərabər tədqiqatın dəstəklənməsini məsləhət görürəm. Hesab edirəm ki, onun əsərinin nəşr edilməsi Avropa alimlərinin marağına səbəb olacaq və onların diqqətini Qafqaz tarixinə cəlb edəcək".

**Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, arxeoloq Bəhlul İbrahimli:**

"Tarixi faktları uydurma və şişirtmələrdən seçib ayırmaq tədqiqatçının bacarığından asılıdır. Amazonların tarixdə qoyduqları izlər ən çox e.ə. II minilliyin sonlarına və I minilliyin əvvəllərinə təsadüf edir. Makedoniyalı İsgəndərin dövründən sonra onların izləri tarixdə itir və əfsanəyə çevrilir. Bu dövrdən sonrakı tarixçi və coğrafiyaşünaslar amazonlar haqqında hekayələri həqiqət deyil, əfsanə hesab etmişlər.

Naxçıvan ərazisində, iki qədim nekropolda (Qızılvəng və Plovdağ-II nekropollarında) silahla dəfn olunmuş qadın qəbirlərinin aşkar edilməsi qədim Naxçıvan tayfalarında qadınların da kişilərlə bərabər döyüşdə və (daha böyük ehtimalla) ovda iştirak etdiklərini söyləməyə əsas verir. Qadın qəbirlərinə silah qoyulmasını başqa cür yozmaq mümkün deyil.

Nuridə Atəşi bu kitabda amazonlar haqqında əfsanənin həqiqət tərəfini araşdırmış və xeyli material toplamışdır. Bu tədqiqat Azərbaycan tarixi ilə bağlı problem mövzulardandır və qeyd etmək lazımdır ki, amazonlar haqqında əfsanənin tarixi gerçəkliklə bağlı olan tərəflərini indiyə qədər çox az tədqiqatçı araşdırıb. İnanıram ki, Nuridə Atəşinin bu kitabı geniş oxucu kütləsi tərəfindən olduqca maraqla qarşılanacaq".

**Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, Tarix üzrə fəlsəfə doktoru, arxeoloq Mübariz C. Xəlilov:**

“Tədqiqatçı və layihənin rəhbəri Nuridə Atəşi mövzuya elmi tərəfdən yanaşaraq əsatirləri elmi dəlillərdən ayırmağı qarşısına məqsəd qoymuşdur. Beləliklə, N.Atəşi bu baxımdan doğru istiqamətdədir. Azərbaycan ərazisində taxta qutu qəbirlərdə, Plovdağ-II qəbir abidəsində silahlı qadınların dəfn edilməsinin qeydə alınması həmin gerçəkliyi əks etdirir. Yazılı mənbələr bildirir ki, amazonların əsas silahını təbərzinlər təşkil edib. Qafqaz ərazində nəinki belə balta nümunələri, hətta onların yerli istehsalından xəbər verən qəliblər də aşkar edilib. Qobustan qayalarında çiynində kaman gəzdirən çoxsaylı qadın rəsmləri mövcuddur. Arxeoloji mənbələrin tam olmayan bu siyahısı da mövzunun zəngin elmi təmələ söykəndiyini təsdiq edir. Arxeoloji materialları isə bir sıra digər mənbələrdən fərqli olaraq təkzib etmək mümkün deyildir”.

## Amazon tədqiqatım necə başladı

Gözlərimi dünyaya Qafqaz dağlarının qoynunda, minillik tarixi olan, insan ayağı dəyməyən meşələrlə əhatələnmiş qədim bir məkanda - Azərbaycanın Dağıstanla sərhəd bölgəsində yerləşən Oğuz rayonunun Xaçmaz kəndində açmışam. Bu yerlər lap qədim zamanlardan "Qafqaz dərəsi" kimi məşhurdur. Bu gün də mağaraya bənzər ata yurdum dağın yamacında, meşənin içində, hasarsız, qapısız-bacasız, sıx bir meşəlikdə yerləşir. Dərədən axan çayın səviyyəsindən ən azı 2000 metr hündürlükdə yerləşən Qız qalası hər səhər gözümü açanda tamaşa etdiyim ilk mənzərə idi. Üç tərəfdən kəndimizi əhatə edən sıra dağları, onun meşəli yamaclarını, mağaralarını 17 yaşıma qədər at belində, yorulmadan hər daşını, qayasını əzbərləyincəyə qədər gəzib-dolaşdım.
Uşaqlıq illərimi nə televizor, nə telefon, nə təbii qaz, nə gəlincik bilmədən, tanımadan yaşadım. Hər ağacın koğuşunda, hər daşın altında bir kitabım vardı, amma heç kəsin oxumadığı, görmədiyi bir kitab...
Hər səhər dağların qoynundan qaynayan bulaqların birləşərək əmələ gətirdiyi sərin çaydan çiynimdə səhənglə su daşıyırdım. Dolu səhəngin ağırlığından şikayət edərkən atam mənə Qız qalasını göstərərək deyərdi:
Bax, sənin ulu nənələrin olan igid savaşçı qadınlar o qalada yaşamış və illər uzunu savaşmışlar. Sən də onlar kimi igid, qüvvətli olmalısan!
Bu, mənim o zaman uşaq ağlımla dərk edə bilməli olduğum bir tapşırıq, vəsiyyət idi. 4-5 yaşımda ikən Qız qalasında arxeoloji qazıntılar aparan həmkəndlim, məşhur Azərbaycan arxeoloqu Saleh Qazıyevin arxasınca qalaya qalxardım. Alimlərə çay, keçi südü, yuxa arasında pendir daşıyar, bu dağların igid sakinləri haqda söhbətlərini maraqla dinləyərdim. İndi də o əfsanələrin sehri altındayam. Saleh müəllim qalaya çıxmazdan öncə səhərlər bizə çay içməyə gələrdi. Mən ayaqyalın ondan qabağa düşərkən bu ahıl alim "Gəl, gəl, gedək ulu əcdadlarımızın izlərini axtarmağa. Bir vaxt mən olmayanda sən buralarda onları axtararsan" - deyə, tövşüyə-tövşüyə dağa dırmaşardı. Bu, mənim üçün ikinci bir tapşırıq və tövsiyə idi.
Sonralar bu tapşırıqları və axtardığımız o izləri unutdum. Anam bu dağlarda, meşələrdə 9 uşaq dünyaya gətirib böyütmüşdü. İstəmirdi mən də onun çəkdiyi əziyyətləri çəkim. Orta məktəbi qurtaran kimi valideynlərim məni Bakıya təhsil almağa göndərdi, amma arxeoloq olmaq arzusundan əl çəkmək şərtilə.
1996-97-ci illər idi. Berlin şəhərində TD1 alman-türk telekanalında "Şərqdən Qərbə körpü" verilişini aparırdım. Berlindəki "Hitit" adlı alman-türk nəşriyyatının sahibi İ.Aslan məni bir şairə kimi kəşf etdi və "Avından kaçan avcı" adlı şeirlər kitabımı nəşr etdi. Kitab Berlin türk mətbuatında böyük sensasiya kimi qarşılandı.

Hər verilişdən sonra çox sayda telefon zəngləri olurdu, studiyanı saatlarla tərk edə bilmirdim. Növbəti dəfə zəng edən adam xırıltılı səslə danışan ahıl kişi idi: “Siz vəhşi bir qafqazlı, naməlum Amazon ölkəsindən gəlib Berlində türk dünyamızı bir-birinə vurmusunuz. Mən sizi mütləq görməliyəm, sizə verəcəyim bir əmanətim var”.
Sonralar bir neçə dəfə də zəng edərək mənimlə görüşmək istədiyini israr etdi. Nəhayət, təklifini qəbul etdim və Kreuzberqdə, Landverkanalın qırağında yerləşən evinə getdim. Evi köhnə sovet arxivlərinin nəm və kifli iyini verirdi. Otaqda divar dolusu kitablardan başqa heç nə yox idi. Güclə yeriyirdi. Rəflərin birindəki qara qovluqların arasından birini seçdi. Köhnə qovluğu mənə uzadıb: “Qızım, aylardır sənin verilişinə baxıram.  Sən bir gerçək Qafqaz amazonusan, minillər boyu orada hökmranlıq etmiş savaşçı qadınların əsl varisisən. Al, qızım, bu, sənin tarixindir, bunu yaxşı-yaxşı araşdır. Mən sənə güvənirəm. Mənim zamanım qalmayıb daha” - dedi. Onun nədən danışdığını öncə anlamırdım. Bərk öskürürdü. Astma xəstəliyindən əziyyət çəkdiyi hiss olunurdu.
Evə gəlib qovluğu bir küncə tulladım. Min il bundan öncələrin tarixi məni indi heç maraqlandırmırdı. Ölkəmdə, sovet Azərbaycanında  min bir əziyyətlər çəkmiş, çətinliklərlə, haqsızlıqlarla  üzləşmiş və nəhayət azad, müstəqil bir ölkəyə gəlmişdim. Burada isə özgür, müasir bir Avropa insanı  kimi yaşamaq istəyirdim. Min il geri qayıtmaq, üstəlik onu tədqiq etmək məni qətiyyən maraqlandırmırdı.
Bir neçə ay sonra iş stolumun üstündəki türk qəzetlərinin birində təsadüfən o qoca, xəstə kişinin şəkli gözümə sataşdı. Yanındakı mətnin sərlövhəsində “Dəyərli türk tarixçisi və tədqiqatçısı Osman Kurt vəfat etdi” - sözləri yazılmışdı.
Qəzeti əlimə aldım. Onun xırıltılı səsi qulaqlarımda yenidən səsləndi: “Bu, sənin tarixindir, bunu yaxşı-yaxşı araşdır. Mən sənə güvənərək bunu sənə əmanət edirəm”.
Bu, mənim üçün üçüncü tapşırıq və vəsiyyət idi. Sanki birdən-birə yuxudan ayıldım. Uşaq vaxtı bulaqdan su daşıdığım səhəngin ağırlığını çiyinlərimdə hiss etdim, atamın hökmlü səsi qulaqlarımda ildırım kimi şaqqıldadı: “Bax, sənin ulu nənələrin olan igid savaşçı qadınlar o qalada yaşamış və illər uzunu savaşmışlar. Sən də onlar kimi igid və qüvvətli olmalısan!”
Sonra gözlərimin qarşısında yorğun bədəni ilə tövşüyə-tövşüyə dağa dırmaşan qoca arxeoloq canlandı: “Gəl, gəl, gedək ulu əcdadlarımızı axtarmağa! Bir vaxt mən olmayanda sən buralarda onları axtararsan”...
Evə gəlib həyəcanla kitab rəflərimdə qocanın verdiyi  qara qovluğu axtarmağa başladım. Cəmi bir həftə əvvəl əlimdə idi, hətta kif iyi verdiyi üçün zibil qutusuna atmaq istəmişdim... Nəhayət, tapdım. Tapan kimi də açıb vərəqləməyə, ilk cümlələri oxumağa başladım:
“...Amazonlar. Qafqazdan çıxmış vəhşi, cəsur, qorxmaz, igid savaşçı qadınlar...”

İkinci cümlədən sonra artıq saralmış vərəqlərdən gələn kif qoxusunu hiss etmədim... və bu günə qədər bu mövzudan ayrıla bilmirəm. Elə həmin il - 1997-ci ildə Bakıya gəldim. O zaman yeganə universitet olan Bakı Dövlət Universitetinə gedərək Qafqaz savaşçı qadınlarını və amazonları tədqiq etmək, onlara aid elmi iş müdafiə etmək arzumu bildirdim. Bu mövzuda bir tədqiqat sahəsi və mütəxəssislər olmadığı, bunun bir antik mifologiya olduğu güman edildiyi üçün mənə yardımçı ola bilməyəcəklərini dedilər. Moskvaya gedib müxtəlif universitetlərə baş vurdum. Professorlar elmə, tədqiqata olan alovlu sevgimi görüb məni dəstəkləmək istəsələr də Qafqaz amazonları ilə bağlı heç bir araşdırmaya başlaya bilmirdilər. Nəhayət, mənə məsləhət gördülər ki, Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqogika üzrə bir mövzu seçərək müdafiə edim. Çünki qızım Ayanın xəstəliyinə görə illər uzunu Azərbaycan, Rusiya və Almaniya xəstəxanalarında, reabilitasiya mərkəzlərində təcrübə toplamışdım. Elə də etdim. Amma mənim mənəvi vəzifəm Qafqaz savaşçı qadınlarını tədqiq etmək idi. Bu, mənə bir tapşırıq, vəsiyyət kimi verilmişdi. İlk dəfə (tam 40 il bundan öncə!) tapşırığı verənlər isə artıq həyatda yox idilər. Heç kimsə, heç bir tərəfdaş, heç bir maddi vəsait və dəstəyə gümanım gəlmirdi. Yalnız qulaqlarımda qafqazlı qoca atamın ötkəm səsi, gözlərimin qabağında yorğun bədəni ilə tövşüyə-tövşüyə dağa dırmanan qoca arxeoloq və əlimin altında kif qoxuyan qara bir qovluq var idi. Qafqaz dağlarında amazonların üstü çoxdan örtülmüş izlərini mənə yalnız onlar nişan verirdi. O dağ yolları isə çox sıldırımlı, qorxulu və keşməkeşli idi.
Artıq 15 ildir ki, yorulmadan, maddi vəsaitsiz, dəstəksiz, tərəfdaşlarsız - tənha savaşçı kimi tədqiqat aparıram. Hələ bu gün də bu mövzuya şübhə ilə yanaşan (sayı getdikcə azalmaqda olan) alimlər, arxeoloqlar, tədqiqatçılar bu savaşın əks cəbhəsindədir. Onların bircə arqumenti var: mən arxeoloq deyiləmmiş.
Eynən 35 il bundan öncəki kimi.
Vəhşi Qafqaz dağlarında boy atan 9 yaşlı dəcəl bir qızın şairə, yazar olmağın yolunu-yolağasını bilmədən şeirlər yazdığı kimi... Sadəcə yazırdım. Ağac yarpaqlarına, kötüklərə, soyulmuş ağac gövdəsinə yazırdım... Şeir yazmanın nə olduğunu bilmədən yazırdım.
20 yaşımda ikən ölkəmdə ilk şeirlərim çap olununca həm cəmiyyət, həm də ailə tərəfindən sərt ittiham və qadağalarla qarşılaşdım. Bütün nəşriyyatların, mətbuat orqanlarının qapıları üzümə qapandı. Səbəb olaraq da çox zaman bu gətirilirdi ki, mən əruz və heca vəznlərində yaza bilmirəm. “Atəşi” təxəllüsü ilə, gizlicə yazmağa davam etdim. Sonralar şeirlərim İran, Türkiyə və Azərbaycanda oxundu,bir neçəsi hətta hitə çevrildi.
Ölkəmdə kimsə - nə oxucularım, nə dostlarım, nə üzərimdə hökmranlıq edən qardaşlarım, nə də mənimlə bir damın altında yaşayan həyat yoldaşım bilmirdi ki, bu tanınmış şairə Atəşi kimdir. (Həyat yoldaşım mənim ən məşhur mahnım olan

“Neylərsən mənə görən?”i ən sevimli mahnısı kimi həmişə evdə zümzümə edər və heyranlıqla deyərdi: “Kimdir görəsən bu Atəşi? Necə də gözəl yazır!”
Bəlkə, elə buna görədir ki, uzun illər bütün bu çətinliklərə, maneələrə sinə gərərək, ulu əcdadlarım olan, igid, cəsur Qafqaz amazonlarının tarixini belə inadla araşdırıram.

# Kitabda istifadə olunmuş ədəbiyyat siyahısı

**Azərbaycan və türk dillərində**

1. S.M. Qazıyev. Mingəçevirdən tapılmış bəzi silahlardan.Azərbaycanın maddi mədəniyyəti. II Cild. Bakı Az.SSR EA Nəşriyyatı, 1952
2. YNE "XXI" S.11 (Aserbaidschanisch)
3. Gobustan. Azerbaijan By Emmanuel Anati Wara Archives Edizioni del Centro Capo di Ponte (BS) 2001, Italy
4. İ.M. Cəfərzadə "Qobustan qayaüstü rəsmlər" Bakı YNE "XXI"1999
5. Teymur Bünyadov, "Azərbaycan arxeologiyası oçerkləri".
Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1960
6. Aytən Mehdiyeva, "Azərbaycanda qız qalalarının tarixi", Bakı, Elm, 2000
7. Vəli Baxşəli oğlu Baxşəliyev, "Azərbaycan arxeologiyası" (Ali məktəb tələbələri üçün vəsait) – Bakı, Elm, 2007
8. Qələndər Aslanov, "Azərbaycanın tunc təbərzin baltaları", Elm nəşriyyatı, Bakı, 1982
9. Michael Vood: "Büyük İskenderin ayak izlerinde", Boyut Matbaacılık A.Ş İstanbul
10. 2006 Abdulla Fazili, "Atropatena e.ə. IV və b.e. V əsrlər", Bakı, Elm, 1992
11. Nuridə Atəşi „ Azərbaycan-amazonlar ölkəsi "525-ci qəzet, 08.08. Bakı, 2005
12. Məlahət Fərəcova „Azərbaycan qayaüstü insəsənəti" Aspoliqraf Bakı, 2009
13. Nuridə Atəşi „Daşlaşmış amazonlar hərəkətə gəlir"525-ci qəzet 22. 11. Bakı, 2008
14. Nuridə Atəşi "Qobustanın yenidən kəşfi Amazonlarin oxunmamiş daş kitabi
„525-ci qezet" 2 April Bakı, 2009
15. Zaza Aleksidze"Qafqaz albanları dilləndilər."Artanuci, 2003

**Alman dilində**

1. Herodot "Tarix" IV;17 Marix verlag Viesbaden, 2007
2. Strabo" Geographica"Marixverlag, Wiesbaden, 2005
3. Gold der Steppe. Archäologie der Ukraine. In Zusammenarbeit mit Petr P. Tolocko und Vjaceslav Ju. Murzin. Rolle Renate Michael Müller-Wille und Kurt Schietzel (Hrsg.).
Neumünster, Wachholtz (1991).
4. Andreas David Mordtmann , "Die Amazonen", Hahnsche Hofbuchhandlung, Hannover 1862.
5. Hedvig Appelt" Die Amazonen.Töchter von Liebe und Krieg"
Theiss verlag GmbH, Stuttgart, 2009
6. Lun Vebster Vilde "Amazonen"Europa Verlag Hamburg-Vien 2001
7. Amazonen Geheimnisvolle Kriegerinnen. Historisches Museum der Pfalz
8. Speyer. 2010
9. http://www.museum.speyer.de/dyndata/Pressemappe_Amazonen.pdf
10. Essad Bey, "Der Kaukasus: seine Berge, Völker und Geschichte". Deutsche Buch-Gemeinschaft, Berlin 1931
11. Sprache, Geschichte und Kultur der Altaischen Völker Akademie Verlag, Berlin 1974
12. Ateshi, Nourida. Kampf um Berg-Karabach. Berlin: (Hrsg.). Gencevi-Institut für aserbaidschanische Kultur in Deutschland, Berlin, 2007

**Rus dilində**

1. Нарты.VII . Сатанея и Тижасп. Абазинский народный эпос. Черкесск, 1975
2. Нурбиж Г. Ловрадже. Нартской эпос адигеев и археология. 6. Международный Коллегиум Европейского Объщество Кавказология, Мазкоп,1992,
3. Мубариз Халилов. Амазонки и Азербайджан // İrs / Наследие. Москва, № 6, 2003,
4. Нурида Атеши. Новый старый гобустан, или Застывшая в камне непрочитанная книга амазонок или Застывшая в камне непрочитанная книга амазонок. “Zerkalo” Baku, 4 April 2009
5. Нурида Атеши. Колыбель Олимпиад - Гобустан, а не Греция, Baku Чт. , 2 Июл., 2009
6. Борисфен - Березань. Государственный Эрмитаж. Каталог выставки.
Санкт-Петербург, 2005.
7. Дж. А. Халилов. Материальная культура Кавказской Албании (IV в.до н.э. – III в.н.э.). Баку, Элм, 1985
8. Б. Б. Пиотровсий. Археология Закавказья. Ленинград, ЛГУ, 1949

## Tədqiqatın aparıldığı ölkələr



Azərbaycan.
Arxoloq Professor
İ.Babayev, N. Atəşi



Gürcüstan.
Professor Z. Aleksidze,
N. Atəşi



Yunanıstan



Türkiyə



Rusiya



Braziliya.
Amazon çayı üzərində
ekspedisiya